# HƏRƏKƏT, CƏSARƏT VƏ İLHAM İLİ

Qarşıdan Çin təqviminə görə odlu qırmızı at ili gəlir. Bu il ay təqvimi ili 17 fevral 2026-cı ildə başlayacaq və 5 fevral 2027-ci ildə başa çatacaq. Çin astrologiyasında at hərəkət, sürət, azadlıq və müstəqilliyin rəmzidir. Od ünsürü bu xüsusiyyətləri daha da gücləndirərək güc, qətiyyət və hərəkətə çağırış qatır.

Astroloq Səbuhi Rəhimli deyir ki, qırmızı at ilində Xeyir və Şər qüvvələri eynilləşəcək: “İndi güc balansı eyni səviyyəyə qalxacaq. Bu isə qızğın mübarizələrə səbəb olacaq. Təxminən may ayına qədər davam edən mübarizədə ədalət tərəfdarları üstünlük qazanacaqlar”.

SƏHİFƏ 7-də



‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

30 DEKABR ÇƏRŞƏNBƏ AXŞAMI 2025 № 50 (4251) Qiyməti - 60 qəpik www.kaspi.az

YENİ İLİNİZ MÜBARƏK



## DÜNYA MÜHARİBƏLƏRİN ASTANASINDA

Gələn il üçün dünyanı gözləyən proseslərlə bağlı proqnozlar heç də nikbin deyil. Müharibələr, sürətli silahlanma və iqtisadi çətinliklər davam edəcək. Hətta Üçüncü Dünya müharibəsinin başlaya biləcəyi də deyilir.

SƏHİFƏ 5-də



## GƏLƏN İL İNTERNET DAHA SÜRƏTLİ OLA BİLƏR

Gələn il Azərbaycanda internetin keyfiyyətini və sürətini artırmaq üçün konkret addımlar planlaşdırılır. İKTA ilə internet provayderləri arasında keçirilmiş son görüş göstərir ki, bu istiqamətdə texniki baza formalaşır.

SƏHİFƏ 12-də



## İDMANDA UĞURLARLA DOLU BİR İL

2025-ci il Azərbaycan idmanı üçün tarixi oldu. MDB Oyunları, UFC turniri, azad edilmiş ərazilərdə infrastrukturun bərpası, beynəlxalq yarışlarda əldə olunan saysız medallar ölkəmizin idman potensialını nümayiş etdirdi.

SƏHİFƏ 16-da



# 2025-Ci İLİN ƏN YADDAQALAN HADİSƏLƏRİ

Konstitusiya və Suverenlik İli kimi qeyd etdiyimiz bu il bir sıra ciddi uğurlarla yadda qaldı. Vaşinqtonda imzalanan tarixi razılaşmalar, Zəngəzur dəhlizi ilə bağlı atılan addımlar, Rusiya ilə gərginlik ilin ən diqqətçəkən hadisələri oldu.



ZƏNGƏZUR DƏHLİZİ – TRAMP YOLU RAZILAŞDIRILDI



İRAN PREZİDENTİ PEZEŞKİANIN BAKI VƏ ŞUŞA SƏFƏRİ



PREZİDENT İLHAM ƏLİYEVİN ÇİNƏ TARİXİ SƏFƏRİ

### TARİXİ VAŞİNQTON RAZILAŞMALARI

Azərbaycanın və ümumilikdə Cənubi Qafqazın siyasi həyatında ən mühüm hadisə təbii ki, avqustda reallaşan tarixi Vaşinqton görüşü idi. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə avqustun 8-də İlham Əliyev, Donald Tramp və Nikol Paşinyan Vaşinqton şəhərində keçirilmiş görüşə dair Birgə Bəyannaməni imzaladılar.

### ŞUŞA YENİ MƏRKƏZ STATUSUNDA

2025-ci il həm də Xankəndinin və Şuşanın yeni diplomatik mərkəzlər olması ilə yadda qaldı. İyulun 4-də Xankəndi şəhərində ECO-nun 17-ci Zirvə görüşü keçirildi. Bu Zirvə görüşündə çoxsaylı dövlət və hökumət başçıları iştirak etdi. Azərbaycana səfər edən bir çox dövlət başçıları ilə ikitərəfli müzakirələr və qarşılanma mərasimləri Şuşada reallaşdı.

SƏHİFƏ 8-9-da



## AZƏRBAYCAN MEDİASI 2025-DƏ

Milli mətbuatın 150 illiyi, media forumlar və süni intellektin yaratdığı yeni reallıqlar 2025-ci ili Azərbaycan mediası üçün fərqli və yaddaqalan etdi. Media rəhbərləri ötən ili həm uğurlar, həm də çağırışlar ili kimi qiymətləndirirlər.

SƏHİFƏ 4-də




## 2025-Cİ İLİN MƏDƏNİYYƏT PANORAMASI

Başa çatmaqda olan il müxtəlif təqdimatlar, sərgilər, festivallarla yadda qaldı. İl ərzində böyük layihələr və beynəlxalq tədbirlər də keçirildi. Bu il bir çox tanınmış mədəniyyət xadimlərini də bizdən aldı.

SƏHİFƏ 6-da



## ƏN ZƏNGİN AYAQQABI MUZEYİNDƏN REPORTAJ

Bata Ayaqqabı Muzeyində dünyanın müxtəlif yerlərindən toplanan 14 min cütdən çox ayaqqabı saxlanılır. Kolleksiyalara yapon sandaletləri, 4500 il yaşı olan qədim ayaqqabılar da daxildir.

SƏHİFƏ 15-də

# YENİ İLİ HARADA QEYD ETMƏLİ?

Son illər bayramı evdən kənarda keçirmək artıq ənənəyə çevrilməyə başlayıb. İnsanlar Yeni il gecəsində də pul xərcləməkdə xəsislik etmirlər. Turist şirkətləri həm yerli, həm də xarici ölkələri əhatə edən seçim imkanı təqdim edirlər.

SƏHİFƏ 11-də





## 2026-cı ilin dövlət büdcəsi təsdiqləndi

Prezident İlham Əliyev Milli Məclisin dekabrın 9-da qəbul etdiyi "2026-cı il dövlət büdcəsi haqqında" qanunu təsdiqləyib. "Report" xəbər verir ki, qanuna əsasən, gələn il büdcə gəlirlərinin 38 milyard 609 milyon manat (2025-ci ilin təsdiq olunmuş proqnozuna nisbətən 0,7% çox), xərclərinin isə 41 milyard 703,6 milyon manat (+0,7%) olacağı gözlənilir. Son nəticədə dövlət büdcəsində 3 milyard 94,6 milyon manat kəsir yaranmalıdır. Bu isə illik müqayisədə 1,4% çoxdur. 2026-cı ildə Azərbaycanın icmal büdcəsinin gəlirlərinin isə 44 milyard 969,4 milyon manat, xərclərinin isə 48 milyard 839,3 milyon manat olacağı gözlənilir. Bunlar 2025-ci ilin təsdiq olunmuş proqnozlarına nisbətən müvafiq olaraq 2,3% və 2,5% çoxdur. Son nəticədə icmal büdcədə 3 milyard 869,3 milyon manat kəsir yaranmalıdır. Bu isə illik müqayisədə 5,2% çoxdur. Büdcədə neftin 1 barelinin qiyməti 65 ABŞ dolları götürülüb.




## Tranzit məsələləri müzakirə edilib

Xarici işlər naziri Ceyhun Bayramov gürcüstanlı həmkarı Maka Botçorişvili ilə telefon danışığı zamanı Azərbaycan neft məhsullarının Gürcüstan üzərindən Ermənistana ixracını müzakirə edib. "Report" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb.

Tərəflər bölgədə ticarət və kommunikasiya məsələləri barədə müzakirə apararaq bu istiqamətdə səyləri alqışlayıblar. Azərbaycan neft məhsullarının Gürcüstan üzərindən Ermənistana ixracı ilə bağlı tarif məsələsində əldə olunmuş razılığı məmnuniyyətlə qeyd edən nazirlər, bu istiqamətdə işlərin davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar. Nazir Ceyhun Bayramov Gürcüstan rəhbərliyinin operativ qaydada məsələni həll etdiyinə görə qarşı tərəfə təşəkkürünü bildirib. Bunun yanaşı, digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# PREZİDENT İLHAM ƏLİYEV "BAKI AĞ ŞƏHƏR"DƏ OLUB




**Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları "Qarabağ atları" heykəltəraşlıq kompleksi, Babək kvartalında həyata keçirilən işlərlə tanış olublar. Zaman meydanı və buradakı piyada körpüsünün açılışında da iştirak ediblər.**

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva dekabrın 29-da "Bakı Ağ Şəhər"də olublar. "Bakı Ağ Şəhər" layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına və birinci xanıma burada icra olunmuş və hazırda həyata keçirilən işlər barədə məlumat verib.

### "QARABAĞ ATLARI" HEYKƏLTARAŞLIQ KOMPLEKSİ

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları əvvəlcə "Qarabağ atları" heykəltəraşlıq kompleksi ilə tanış oldular. Vətən müharibəsindəki Qələbəmizə həsr edilmiş və milli irsimizin rəmzi olan bu kompleks "Qarabağ atları" meydanında ucaldılıb. Kompleksdə "Soltan", "Ürək", "Sereyin", "Aypara", "Şöhrət", "Ötqəm" və "İldırım" adlı ümumilikdə 7 Qarabağ atının heykəli var.

Bu kompleksin təməlini 2022-ci ilin dekabrında Prezident İlham Əliyev qoyub. Kompozisiya amerikalı heykəltaraş Robert Sammers tərəfindən yaradılıb. Onun Dallas şəhərində "Mal-qara sürülməsi", Kaliforniya hava limanında "Con Ueyn" və digər əsərləri dünyaca məşhurdur.

## "Bakı Ağ Şəhər"də Babək kvartalı




Sonra dövlət başçısı, birinci xanım və qızları "Bakı Ağ Şəhər"də Babək kvartalında həyata keçirilən işlərlə tanış oldular. Hazırda bu layihənin icrası istiqamətində işlər uğurla davam edir. Ərazisi 31 hektar olan kvartalda yeni park, məktəb binası, metronun bənövşəyi xəttində yeni stansiya, sərnişinlərin rahat hərəkəti üçün böyük nəqliyyat qovşağı, həmçinin çoxfunksiyalı qeyri-yaşayış, ictimai və yaşayış binalarının inşası planlaşdırılır. Ərazidə kafelər, uşaq oyun meydançası və digər sosial infrastruktur yaradılacaq. Bundan başqa, yaxınlıqda 2, 3, 6, 8 və 20 mərtəbəli binalar tikiləcək. Kvartal Bakının mühüm nəqliyyat arteriyası olan Babək prospekti, "Ağ Şəhər" çərçivəsində salınmış, üç böyük prospektlə kəsişən, eni 45 metr olan Xaqani Rüstəmov küçəsi ilə əhatə olunub. Kvartalın cənub hissəsində yerləşən, metronun "Xətai" stansiyasından keçən Süleyman Vəzirov küçəsi də Babək prospekti ilə birləşir. Bu küçədəki dairədən Babək prospektinə qədər eni 34 metr, uzunluğu isə 1 kilometrdən çox olan dördzolaqlı yol yenidən qurulub.

## Zaman meydanının və körpünün açılışı

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Palıd meydanı parkında ilk palıd ağaclarını əkiblər. Qeyd edək ki, parkda çox sayda palıd, çinar, zeytun, ağcaqayın, maqnoliya, palma və digər mövsümi ağacların əkilməsi planlaşdırılır.

Dövlət başçısı, birinci xanım və qızları "Bakı Ağ Şəhər"də Zaman meydanı və buradakı piyada körpüsünün açılışında da iştirak ediblər. Uzunluğu 234, eni isə 7-13 metr arasında dəyişən körpü "Bakı Ağ Şəhər"də piyadaların rahatlığının təmin edilməsində mühüm rol oynayacaq.

8 Noyabr küçəsində yerləşən və 8 min kvadratmetrə yaxın ərazini əhatə edən Zaman meydanı gözəl landşaft və fəvvarələr kompleksi ilə əhatə olunub. Bura incəsənət və mədəniyyət həvəskarlarının məkanına çevrilib. Belə ki, meydanda bir çox yerli və xarici məşhur sənətkarların əsərləri nümayiş olunur. Meydan dünyada məşhur rəssam Konstantin Krik tərəfindən məhz "Bakı Ağ Şəhər" layihəsi üçün hazırlanmış 7 saatdan ibarət "Seven Public Clocks" kompozisiyası ilə bəzədilib.

### BİR VAXTLAR "QARAŞƏHƏR" KİMİ TANINIRDI

Qeyd edək ki, bu ərazi 150 ildən çox neft sənayesi tullantıları ilə həddindən artıq çirkləndiyi və burada çoxsaylı neft gölməçələri yarandığı üçün bir vaxtlar "Qaraşəhər" kimi tanınırdı. Azərbaycan Prezidentinin təşəbbüsü ilə bu ərazi dünya miqyasında nadir ekoloji layihəyə, müasir yaşayış massivinə çevrilib. "Bakı Ağ Şəhər" layihəsi dünyada müasir şəhərsalma konsepsiyanın ən parlaq nümunələrindən biridir. Layihənin icrasına Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2011-ci il dekabrın 24-də başlanılıb. Layihə ekoloji cəhətdən təmiz, dayanıqlı və "ağıllı şəhər" prinsipləri əsasında işlənib hazırlanıb.

# AĞDAM SAKİNLƏRİNİ QARŞILAYIR

Böyük Qayıdış proqramının növbəti ünvanı bu dəfə işğal dövründə tamamilə dağıdılmış Ağdam şəhəri oldu. Prezident İlham Əliyevin iştirakı ilə ağdamlılara evlərinin açarları təqdim edildi.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə budəfəki səfəri özünəməxsusluğu və tarixi anların yaşanması ilə yadda qaldı. Xüsusilə 30 illik işğal dövründə yer üzündən silinmiş Ağdam şəhərində görülən işlər, buraya ilk sakinlərin köçürülməsi Böyük Qayıdış prosesində yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Ölkənin ən böyük sənaye mərkəzlərindən biri olaraq düşünülən Ağdam şəhərində qısa müddətdə həyata keçirilən meqalayihələr bir daha ölkəmizin gücünün və qüdrətinin göstəricisidir.

**"AĞDAM DEMƏK OLAR Kİ, URBİSİDƏ MƏRUZ QALMIŞDIR"**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüblər. Görüşdə çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, uzun illər köçkün həyatını yaşamış insanlar üçün bu gün Ağdam şəhərində və işğaldan azad edilmiş bütün başqa ərazilərdə yeni, müasir şəhərlər, kəndlər, qəsəbələr salınır və artıq Böyük Qayıdış Proqramının əyani təzahürlərini hər kəs görə bilir: "İşğal dövründə Ağdam demək olar ki, urbisidə məruz qalmışdır. Yəni şəhər Ermənistan dövləti tərəfindən tamamilə dağıdılmışdır. Bu, Ermənistan dövlətinin məqsədyönlü siyasəti, bizə qarşı olan düşmənçiliyin bariz nümunəsi idi. Məqsəd də tam aydın idi. Birincisi, talançılıq. Çünki bütün binaların daşları bir-bir sökülərək talan edilmişdir, müxtəlif yerlərdə, Ermənistan ərazisində satılmışdır. Digər tərəfdən, Ermənistan dövləti bu bölgələrdə Azərbaycan xalqının tarixi irsini tamamilə silmək istəyirdi. Üçüncü məqsəd isə bu şəhəri elə vəziyyətə salmaq idi ki, artıq burada yaşayış mümkün olmasın, azərbaycanlılar heç vaxt buraya qayıtmaq haqqında düşünməsinlər.



Ancaq səhv etdilər. Biz, xalqımız bütün bu əzablı illər ərzində bir amalla yaşamışıq ki, öz doğma dədə-baba torpaqlarımıza qayıdaq və qayıdandan sonra bu torpaqları, bu şəhərləri, kəndləri bərpa edək. Azərbaycan xalqı heç vaxt işğalla barışmamışdır".

**"ERMƏNİSTANI BÖYRÜ ÜSTƏ QOYDUQ"**

Prezident qeyd edib ki, beş il öncə şanlı İkinci Qarabağ müharibəsi və onun nəticələri haqq-ədaləti, beynəlxalq hüququ, milli ləyaqətimizi bərpa etdi: "Ermənistan dövləti bir qarış, bir santimetr torpaq qaytarmaq fikrində deyildi. Ermənistanın bütün rəhbərləri, müstəqillik illərində Ermənistana rəhbərlik edən bütün şəxslər bir qarış torpaq qaytarmaq fikrində deyildilər. Biz onları məcbur etdik və xalqımız bütün dünyaya öz gücünü, qüdrətini, güclü iradəsini göstərmişdir. Xalq yumruq kimi birləşdi. Silahlı Qüvvələrimiz qəhrəmanlıq, fədakarlıq göstərmişdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Cəmi 44 gün ərzində Ermənistanı böyrü üstə qoyduq".

**"QƏLƏBƏMİZİN MÖHÜRÜ VURULDU"**

Prezident İlham Əliyev qeyd edib ki, bizim iradəmizin qarşısında heç kim dura bilməz. Bugünkü yeni reallıqlar dünyanın aparıcı ölkəsinin Prezidentinin iştirakı ilə avqust ayında təsdiqləndi, möhürləndi: "Bizim Qələbəmizin çox böyük və güclü möhürü də vuruldu, onunla da separatçılığın, bizə qarşı ərazi iddialarının, anti-Azərbaycan qüvvələrinin bizə qarşı açıq "soyuq savaşı"nın artıq sonu gəldi, separatçılığın kitabı bağlandı və Azərbaycan xalqı artıq bir neçə aydır ki, sülh içində yaşayır".




## "DÜŞMƏNLƏRİMİZDƏN BİR NEÇƏ DƏFƏ GÜCLÜ OLMALIYIQ"





Dövlət başçısının sözlərinə görə, indi Ermənistanla Azərbaycan arasında sülh prosesi gedir və bunun təşəbbüskarı da biz olmuşuq: "Birinci təklifi biz vermişik, sülh müqaviləsinin mətninin müəllifi də bizik və oraya salınan bütün maddələrin də müəllifi bizik. Ancaq biz işğalı necə unuda bilərik?! Şəhidlərimizi necə unuda bilərik?! Xocalı qurbanlarını, digər günahsız insanların həlak olmasını necə unuda bilərik?! Heç vaxt unuda bilmərik və unutmamalıyıq. Çünki bu tarixi yaddaş həmişə bizim qəlbimizdə olmalıdır. Şəhidlərin əziz xatirəsi həmişə qəlbimizdə yaşamalıdır və heç vaxt şirin sözlərə uymamalıyıq. Bax, bunu mən bir də deyirəm. Mən bunu birinci dəfə deyil ki, deyirəm. Ayıq olmalıyıq, daim güclü olmalıyıq. Ona görə biz son 5 ildə ordu potensialımızı böyük dərəcədə gücləndirmişik və keçən ay hərbi paradda bütün dünya bunun bir hissəsini görə bildi. Əbədi sülhə nail olmaq üçün biz hər zaman potensial düşmənlərimizdən bir neçə dəfə güclü olmalıyıq. Bunu təmin edirik və edəcəyik".

**44 METR HÜNDÜRLÜYÜNDƏ ZƏFƏR TAĞI**

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə budəfəki səfərində diqqət çəkən ən mühüm məqamlardan biri də Xankəndidə Zəfər parkının açılışı oldu. Parkın girişindən Zəfər tağına doğru 44 pilləkən salınıb. Zəfər tağının hündürlüyü Vətən müharibəsi günlərinin sayına görə rəmzi olaraq 44 metr təşkil edir. Qeyd edək ki, Xankəndi şəhərində Zəfər parkının yaradılması mühüm əhəmiyyət daşıyır. İlk növbədə, bu layihə Azərbaycan xalqının tarixi ədalətin bərpası və öz ərazi bütövlüyünün qorunması uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını və 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni əks etdirir.

**YENİ AÇILIŞLAR, TƏMƏLATMA MƏRASİMLƏRİ**

Qeyd edək ki, Prezident İlham Əliyev səfəri zamanı Xankəndinin Kərkicahan qəsəbəsində olub, 1 nömrəli tam orta məktəbin binasının əsaslı təmirdən sonra açılışında iştirak edib. Qarabağ Universitetinin biznes və iqtisadiyyat fakültəsinin binasının açılışına qatılıb, mühəndislik fakültəsinin binasının təməlini qoyub. Səfər çərçivəsində "Xankəndi-1" elektrik yarımstansiyası da istismara verilib. Xocalının Ballıca kəndində ofis mebelləri və mebel aksesuarlarının istehsalı müəssisəsi açılıb. Ağdam şəhərində isə "Hilton Garden Inn Agdam" hoteli istifadəyə verilib.

MEDİANI ƏN ÇOX DÜŞÜNDÜRƏN MƏSƏLƏLƏRDƏN BİRİ SÜNİ İNTELLEKTİN SÜRƏTLİ İNKİŞAFI OLDU

# AZƏRBAYCAN MEDİASI 2025-DƏ

**Milli mətbuatın 150 illiyi, beynəlxalq media forumlar və süni intellektin yaratdığı yeni reallıqlar 2025-ci ili Azərbaycan mediası üçün fərqli və yaddaqalan etdi. Media rəhbərləri ötən ili həm uğurlar, həm də çağırışlar ili kimi qiymətləndirirlər.**




ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2025-ci il media sahəsində baş verən proseslər həm peşəkar çevrələrdə, həm də ictimai gündəmdə diqqətlə izlənildi. İnformasiya mühitində müşahidə olunan dəyişikliklər, jurnalistikanın cəmiyyətdəki rolu və media institutlarının fəaliyyəti il boyu müzakirə mövzusu olaraq qaldı.

### YUBİLEY VƏ ONUN ƏTRAFINDA BAŞ VERƏN PROSESLƏR

Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidin sözlərinə görə, 2025-ci ildə mətbuatımızın 150 illik yubileyinə şahidlik etdik: "Hesab edirəm ki, ilin ən böyük media hadisəsi məhz bu yubiley və onun ətrafında baş verən proseslər oldu. Bu yubiley təkcə tarixi bir mərhələnin qeyd olunması deyil, eyni zamanda mətbuatın cəmiyyətdəki roluna verilən dəyərin göstəricisi idi. 2025-ci ildə mətbuatımız adına yubiley medalının təsis edilməsi mühüm bir ilk kimi yadda qaldı. Prezident İlham Əliyevin fevral ayında imzaladığı Fərmanla təsis edilmiş "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" yubiley medalının sahiblərinə təqdim edilməsi ilə təltif olunan jurnalistlərin sevincinə şahid olduq".


Rəşad Məcid
Foto: Coşqun Süleymanov Global Photostock

R.Məcid Milli Mətbuat Günü ərəfəsində jurnalistlərin böyük bir qrupunun təltif edilməsini də ilin pozitiv hadisələrindən hesab edir: "Jurnalistlərin böyük bir qrupu "Əməkdar jurnalist" fəxri adına, eləcə də müxtəlif orden və medallara layiq görüldü. Bu, mətbuat işçilərinin əməyinin dövlət səviyyəsində qiymətləndirildiyini bir daha göstərdi. Bundan əlavə, Şuşada keçirilmiş və artıq ənənəyə çevrilmiş Qlobal Media Forum, eləcə də D-8 Media Forumu, Türkdilli Dövlətlərin Media Forumu və Azərbaycan-Gürcüstan Media Forumu başa çatmaqda olan ilin mühüm media hadisələri sırasında xüsusi yer tutur".

## "YÜKSƏK DƏYƏRİN GÖSTƏRİCİSİ"

Media.az informasiya portalının direktoru və baş redaktoru Cəmilə Ələkbərova da düşünür ki, 2025-ci il Azərbaycan mediası üçün həm mühüm transformasiyalar və çağırışlar dövrü, həm də beynəlxalq arenada əldə olunan nailiyyətlərlə yadda qalır: "Bu il Azərbaycan qlobal media dialoqu üçün mühüm mərkəz kimi fəal şəkildə çıxış etdi. Mətbuatımızın 150 illiyinə və süni intellekt dövründə medianın dayanıqlı inkişafına həsr olunan III Şuşa Qlobal Media Forumu ilin ən parlaq hadisələrindən biri kimi yadda qaldı. Noyabr ayında Bakıda təşkil olunan ilk D-8 Media Forumunda isə inkişaf etməkdə olan ölkələr arasında media sahəsində əməkdaşlığa dair "Bakı Bəyannaməsi 2025" qəbul olundu. Bu forumlar dünyanın müxtəlif ölkələrindən yüzlərlə jurnalist və eksperti bir araya gətirməklə yanaşı, Azərbaycanın informasiya təhlükəsizliyi və dezinformasiya ilə mübarizə sahəsindəki rolunu da ön plana çıxardı".


Cəmilə Ələkbərova

C.Ələkbərova vurğulayıb ki, yubiley tədbirləri milli mətbuatın tarixi yoluna verilən yüksək dəyərin göstəricisidir: "İyulun 22-də Azərbaycan Milli Mətbuatının 150 illiyi təntənəli şəkildə qeyd olundu. Prezidentin imzaladığı Fərmanla onlarla jurnalist yubiley medalı ilə təltif edildi. Bu, dövlət səviyyəsində mətbuatın tarixi yoluna, söz və informasiya azadlığının inkişafına verilən yüksək qiymətin növbəti təzahürü kimi dəyərləndirilməlidir".

## "ÇAP MEDİASININ İNKİŞAFI VACİBDİR"

AzVision.az saytının baş redaktoru Vüsal Məmmədov isə bildirdi ki, 2025-ci ildə medianı ən çox düşündürməli olan məsələlərdən biri süni intellektin sürətli inkişafı idi: "Bu proses media üçün həm yeni imkanlar yaratdı, həm də ciddi çağırışlar ortaya çıxardı. Süni intellekt texnologiyalarının informasiya istehsalına təsiri artıq özünü açıq şəkildə göstərir və yaxın gələcəkdə medianın fəaliyyət prinsiplərinin əsaslı şəkildə dəyişəcəyini deməyə əsas verir".

V.Məmmədovun sözlərinə görə, bu il qəzetlərə ayrılan maliyyə dəstəyinin azaldılması narahatlıq doğuran məqamlardandır: "Saytlara ayrılan vəsaitlərin artırılması müsbət hal sayıla bilər, lakin bunun çap mediasının hesabına baş verməsi məyusedicidir. Qəzetlərin birləşdirilməsi, redaksiyalarda ixtisarların aparılması çap mediasının vəziyyətini daha da çətinləşdirir. Məncə, "qəzet oxuyan yoxdur" arqumenti ilə çap mediasını azaltmaq doğru yanaşma deyil. Qəzetlər yaşamalı, müasir dövrün tələblərinə uyğunlaşaraq fəaliyyətini davam etdirməlidir. Eyni zamanda jurnalların demək olar ki, yox səviyyəsində olması da düşündürücüdür. Çap mediasının bütün formalarının inkişafı vacibdir".


Vüsal Məmmədov
Foto: Tapdıq Abdullayev Global Photostock

## "MEDİANIN CƏMİYYƏTDƏKİ ROLU ARTDI"

"Report" İnformasiya Agentliyinin baş direktoru Fuad Hüseynəliyevin sözlərinə görə, 2025-ci ildə medianın cəmiyyətdəki rolu xeyli artdı: "Dövlət orqanları tərəfindən hesabat xarakterli mətbuat konfranslarının sayının artması müsbət tendensiya kimi qiymətləndirilməlidir. Dövlət qurumlarının rəhbərlərinin media vasitəsilə cəmiyyət qarşısında hesabat verməsi şəffaflığın artırılmasına töhfə verir. Mətbuat xidmətlərinin fəaliyyətində də müəyyən irəliləyişlər müşahidə olunur. Hesab edirəm ki, mediaya göstərilən bu diqqət gələcək illərdə də davam edəcək".

F.Hüseynəliyev bildirdi ki, Media İnkişaf Agentliyinin təşkil etdiyi müxtəlif treninqlər və təlim proqramları xüsusilə gənc jurnalistlər üçün yeni bilik və təcrübə qazanmaq baxımından mühüm rol oynadı. Bu tədbirlər medianın peşəkarlıq səviyyəsinin yüksəldilməsinə xidmət edir.


Fuad Hüseynəliyev
Foto: Tapdıq Abdullayev Global Photostock

Direktor bildirir ki, 2025-ci ildə medianın 150 illik yubileyi dövlət səviyyəsində qeyd edildi və il ərzində tədbirlər təşkil olundu: "Bu tədbirlər həm tarixi irsin təbliği, həm də medianın gələcək inkişaf perspektivlərinin müzakirəsi baxımından mühüm əhəmiyyət daşıdı".

# DÜNYA MÜHARİBƏLƏRİN VƏ BÖHRANLARIN ASTANASINDA

Gələn il üçün dünyanı gözləyən proseslərlə bağlı proqnozlar heç də nikbin deyil. Müharibələr, sürətli silahlanma və iqtisadi çətinliklər davam edəcək. Hətta Üçüncü Dünya müharibəsinin başlaya biləcəyi də deyilir.



AZƏR NURİYEV



Başa çatmaqda olan 2025-ci il dünya tarixinə irimiqyaslı, lokal müharibələrlə yadda qalan il kimi düşəcək. İl ərzində dünyanın əksər yerlərində gərginliklər yaşandı. Bunların arasında şübhəsiz ki, İranla İsrail arasında yaşanan müharibə ilk yerdə dayanır. Bu müharibə üç ildən artıqdır davam edən Rusiya-Ukrayna müharibəsini də kölgədə qoydu. 12 günlük müharibə İranın nüvə obyektlərini yerlə-yeksan etməklə yanaşı, onun hərbi qüdrətini də xeyli zəiflətdi. Müharibəyə ABŞ-nin müdaxiləsi isə son oldu. Başa çatmaqda olan il Hindistan-Pakistan, Əfqanıstan-Pakistan, Kamboca-Tailand münaqişələrin yaşanması ilə də yadda qaldı. Rusiya-Ukrayna müharibəsinə gəldikdə, müharibə nəinki səngidi, əksinə, Avropada müharibə hazırlıqları artdı. ABŞ Prezidenti Donald Tramp müharibəni dayandırmaq üçün bir ilə yaxındır ki, səylər göstərir. Lakin hələlik konkret nəticə yoxdur. ABŞ və Aİ arasında Ukrayna münaqişəsi ilə bağlı fikir ayrılıqları da pik həddə çatıb.

İl ərzində ancaq İsraillə HƏMAS arasındakı savaş səngiyib. Amma hələlik Qəzza bölgəsində də inkişafa doğru hər hansı bir irəliləyiş yoxdur.

### GƏLƏN İL ÜÇÜN BEŞ MÜHARİBƏ SSENARİSİ

Bəs 2026-cı ildə bəşəriyyəti nələr gözləyir? Yeni təqvim ilindən gözləntiləri çoxdur. Ən böyük gözlənti qeyd etdiyimiz kimi, Rusiya-Ukrayna müharibəsinin dayandırılması ilə bağlıdır. Bu müharibə təkcə müharibə tərəflərinə deyil, ümumilikdə bütün dünyaya ciddi təsir edir. Hərbi ekspertlər 2026-cı il üçün beş mümkün müharibə ssenarisini araşdırıblar: Ukrayna üçün təhlükəsizlik zəmanətləri ilə bağlı ABŞ-Rusiya qarşıdurması, Çinin Tayvana qarşı addımları, ABŞ-nin Venesuela və ya İrana potensial hücumları, Şimali Koreyanın Cənubi Koreyaya gözlənilməz hücumu. Ekspertlər əmindir ki, çəkindirmə gücü, müttəfiqlik və ABŞ-nin müharibədən kənarda qalmaq istəyi 2026-cı ildə Üçüncü Dünya müharibəsinin başlayıb-başlamayacağını müəyyən edəcək.

## ÇİNİN İQTİSADİYYATI ABŞ İQTİSADİYYATINI GERİDƏ QOYACAQ

Gələcək dünya mənzərəsini proqnozlaşdırmaq da Qərbin ekspert icması üçün aktual mövzulardan birinə çevrilib. London Avropa İslahatlar Mərkəzinin xarici siyasət şöbəsinin direktoru Mark Leonardın fikrincə, 2026-cı ildə Çinin iqtisadiyyatı ABŞ iqtisadiyyatından daha böyük olacaq. Hindistan ayrı-ayrılıqda istənilən Avropa dövlətindən daha böyük iqtisadi gücə sahib olacaq. Rusiya, Braziliya və İndoneziya inkişaf etdikcə xammal və intellektual kapitala maraq artacaq. Neft, su və mütəxəssislər uğrunda qlobal toqquşmalar baş verəcək. Ekspertlərin fikrincə, 2026-cı ildə bir deyil, ən azı dörd yeni dünya nizamı olacaq. Ən vacib güc qütbü ABŞ qalacaq. Lakin hətta o da, xüsusilə Hindistanı cəlb etmək mümkün olacağı təqdirdə, yalnız şərti dominantlıq təmin edə biləcək.

### QƏZZA SEKTORUNDA HUMANİTAR BÖHRAN

Yaxın Şərqdə atəşkəsin əldə edilməsinə baxmayaraq, Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) humanitar vəziyyətin ağır olaraq qaldığını xəbərdarlıq edir. 2025-ci il dekabrın 1-dən 2026-cı il aprelin 15-dək təxminən 1,6 milyon insan ərzaq təhlükəsizliyinin böhran səviyyəsi ilə üzləşəcək. Onlardan 571 min nəfər fövqəladə vəziyyətdə, təxminən 1,9 min nəfər isə fəlakətli vəziyyətdə olacaq. BQXK qeyd edir ki, döyüşlər yenidən başlasa və humanitar yardım dayandırılsa, bütün Qəzza sektoru 2026-cı ilin aprel ayının ortalarına qədər aclıq təhlükəsi ilə üzləşə bilər. 2026-cı ilin oktyabrın ortalarına qədər münaqişə bölgəsində təxminən 101 min uşağın kəskin qida çatışmazlığından əziyyət çəkəcəyi, onlardan 31 mindən çoxunun ağır vəziyyətdə olacağı proqnozlaşdırılır.

### SİLAHLANMA YARIŞI DAVAM EDƏCƏK

Silahlanma yarışı 2026-cı ildə davam edəcək və ümumi hərbi xərclər 3 trilyon dollara yaxınlaşacaq (2025-ci ildəki 2,8 trilyon dollarla müqayisədə). Lakin bu xərclərin artım tempi, yalnız ortaya çıxan sərt büdcə məhdudiyyətləri və yarışın əsas iştirakçılarının hərbi-sənaye potensialının məhdudiyyətləri səbəbindən yavaşlamağa meylli olacaq.




## SİYASİ QÜTBLƏŞMƏ ARTACAQ?

Proqnozlara görə, ABŞ-də siyasi qütbləşmə tarixdə görünməmiş səviyyəyə çatıb. Respublikaçılar və demokratlar ölkənin keçmişi barədə tamamilə fərqli hekayələr təqdim edirlər. 2026-cı ilin noyabrında keçiriləcək ara seçkilər ölkənin gələcək vizyonunun necə formalaşacağına yön verəcək. Ekspertlər hesab edir ki, Demokratlar Nümayəndələr Palatasında üstünlük qazansalar belə, Trampın idarəetmə tərzi, tarif manevrləri, sərt bəyanatları davam edəcək. May ayında Cerom Pauellin yerinə təyin olunacaq yeni FED sədrinin qlobal bazarların gələcəyində həlledici rol oynaya biləcəyi bildirilir. Əgər FED-in qərarları siyasi təsir altına düşərsə, qlobal maliyyə sistemi kəskin və dağıdıcı bir münaqişə ilə üzləşə bilər.

### SÜNİ İNTELLEKTİN TƏSİRİ NECƏ OLACAQ?

ABŞ-də süni intellekt infrastrukturu üçün ayrılan böyük investisiyalar hələlik iqtisadiyyatın zəif nöqtələrini arxa plana keçirib. Lakin əsas sual süni intellektin növbəti mərhələdə hansı təsirləri yaradacağıdır. Dəmir yolu, elektrik enerjisi və internet kimi tarixi nümunələr göstərir ki, yeni texnologiyalar bəzən çökmə dövrlərini də özü ilə gətirir. Lakin bu, texnologiyanın məhvinə deyil, əksinə, dünyanı silkələyən iqtisadi qarışıqlığa yol açır. "The Economist"ə görə, 2026-cı ildə süni intellektin xüsusilə orta təbəqə və universitet məzunlarına təsiri ən çox müzakirə edilən və cəmiyyətləri iki yerə bölən mövzulardan olacaq.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# 2025-Ci İLİN MƏDƏNİYYƏT PANORAMASI










**Başa çatmaqda olan il müxtəlif təqdimatlar, sərgilər, festivallarla yadda qaldı. İl ərzində böyük layihələr və beynəlxalq tədbirlər də keçirildi. Bu il bir çox tanınmış mədəniyyət xadimləri də bizdən aldı.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Konstitusiya və Suverenlik İli ölkəmiz üçün nüfuzlu beynəlxalq hadisələr, böyük layihələr və beynəlxalq tədbirlərlə yadda qaldı. Mədəniyyət sahəsində də Azərbaycanı dünyaya tanıtmaq istiqamətində təqdimatlar, sərgilər, festivallar keçirildi, ölkəmiz nüfuzlu tədbirlərdə təmsil olundu.

İlin başlanğıcından - yanvardan start götürən tədbirlər rəngarəngliyi ilə fərqlənir. Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) sifarişi ilə lentə alınan, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəviyə həsr edilmiş "Nizami: daxili aləm" sənədli filmi ilk dəfə televiziyada nümayiş olunub.

### "YUBİLEYLƏR İLİ"

2025-ci il "Yubileylər ili" kimi də yadda qalıb. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə bu il dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi ölkəmizdə və xaricdə müxtəlif tədbirlərlə qeyd edilib. Azərbaycan Dövlət Akademik Filarmoniyasında Xalq şairi Fikrət Qocanın 90 illiyinə həsr olunan konsert proqramı, Rəşid Behbudovun 110 illik yubileyinə həsr olunan "Səsin rəngi" adlı sərgi, Beynəlxalq Muğam Mərkəzində dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530 illik yubileyi münasibətilə hazırlanan ikicildlik nəşrin təqdimatı da bu silsilədən həyata keçirilən tədbirlərdəndir.

Ankaradakı TÜRKSOY-un Baş katibliyinin binasında "Bəxtiyar Vahabzadə İli" proqramının açılış mərasimi, Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə böyük mütəfəkkir şair Seyid Əzim Şirvaninin 190 illiyi münasibətilə ədəbi-bədii gecə də keçirilən yubileylərə layiqli töhfədir.

### ŞANLI ZƏFƏRİMİZİN MƏDƏNİ İZLƏRİ

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Vətən müharibəsinə həsr olunan "44" adlı tammetrajlı bədii filmin çəkilişləri böyük Zəfərimizə həsr olunan layiqli işlərdəndir.

Tarixi Zəfərin salnaməsini geniş ictimaiyyətə çatdırmaq məqsədilə Mədəniyyət Nazirliyinin sifarişi ilə şanlı Zəfərimizin beş illiyinə həsr olunan "44 gün 23 saat 43 dəqiqə" adlı toplu da hazırlanıb. Toplu həm arxiv dəyəri, həm də təbliğat və tədris baxımından mühüm mənbə olaraq Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini gələcək nəsillərə ötürəcək.

Bu il Mədəniyyət Nazirliyi və Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə keçirilən "Zəfərdən qələmə" adlı pyes müsabiqəsi də uğurla başa çatıb.

### FESTİVALLAR ÖLKƏSİ

"Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı kimi tədbirlər ölkəmizin ruhuna yenidən can verib. Bu festival 1989-cu ildən keçirilir. Qarabağ münaqişəsi dövründə əsas konsertlər Ağdamda, Bərdə və Ağcabədidə təşkil edilib. Vətən müharibəsindəki tarixi Zəfərimizdən sonra festival yenidən Şuşaya qayıdıb.

İyulda "Vaqif Poeziya günləri" poeziyasevərləri bir araya gətirib. Poeziya bayramı Şuşa, Qazax və Gəncədə baş tutub.

Hər il keçirilən festivallar sırasında 14-cü Qəbələ Beynəlxalq Musiqi festivalı yenə də işini uğurla başa vurub.

7-ci Beynəlxalq Muğam Festivalının açılışı da bu ilə təsadüf edib.

MDB Humanitar Əməkdaşlıq Şurasının 2024-cü ilin 8 oktyabr tarixli qərarı ilə Laçın şəhəri 2025-ci il üçün birliyin "mədəniyyət paytaxtı" elan edilib. Noyabrın 30-da Laçın şəhərində "MDB-nin Mədəniyyət Paytaxtı - 2025" ilinin rəsmi bağlanış mərasimi keçirilib və qala konsert yaddaşlara yazılıb.

Xankəndi, Cəbrayıl, Ağdərə, Füzuli, Laçın şəhər günləri təntənə ilə qeyd olunub.

Bu il ölkəmizdə keçirilən Türkmənistan Mədəniyyət Günləri, Özbəkistan Mədəniyyət Günləri uğurla başa çatıb. Eləcə də bir sıra ölkələrdə Azərbaycanın Mədəniyyət Günləri keçirilib.

Azərbaycanın ilk dəfə olaraq Budapeşt Beynəlxalq Sirk Festivalının beynəlxalq münsiflər heyətində təmsil olunması da mühüm mədəni hadisədir.

## KİTAB SƏRGİLƏRİ

Bu il Azərbaycan beynəlxalq kitab sərgilərində təmsil olunub. Almaniyanın Frankfurt şəhərində dünyanın ən böyük nəşriyyat tədbirlərindən biri - Frankfurt Beynəlxalq Kitab Sərgisində geniş pavilyonda təmsil olunub.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində XI Bakı Beynəlxalq Kitab Sərgisi keçirilib. Sərgidə 23 ölkədən 68 xarici təşkilat və 123 yerli nəşriyyat, poliqrafiya və kitab sənəti ilə məşğul olan müəssisə iştirak edib.

Azərbaycan həmçinin Tbilisidə keçirilən 27-ci Beynəlxalq Kitab Festivalında təmsil olunub.

### FİLM FESTİVALLARI

75-ci Berlin Beynəlxalq Film Festivalında (Berlinale) ARKA pavilyonu milli kino sənətimizi beynəlxalq aləmə tanıtmaq və ölkəmizin mədəni irsini nümayiş etdirmək baxımından əhəmiyyətli hadisə olub.

Berlində ARKA ilə Moldova Milli Kino Mərkəzi arasında memorandum imzalanıb.

Noyabrın 14-də Daşkənd şəhərinin məşhur "Panoramafilm" kinoteatrında "Tağıyev: Neft" filminin xüsusi nümayişi təşkil olunub.

Noyabrın 15-də Daşkənddə "Gələcəyin İrsi" Beynəlxalq Mükafatının təntənəli təqdimat mərasimi isə mədəniyyət aləmində böyük hadisə kimi yadda qaldı. Prezident İlham Əliyevin iştirak etdiyi tədbirdə bu mükafata Xalq artisti Alim Qasımov layiq görülüb.

Omanın Məsqət Kral Opera Teatrında dahi Azərbaycan bəstəkarı Fikrət Əmirovun "Min bir gecə" baletinin nümayişi omanlı tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Bu il Azərbaycanın daha iki abidəsi UNESCO-nun dünya irsinin ilkin siyahısına daxil olub.

### İLİN İTKİLƏRİ

2025-ci ildə bir sıra görkəmli mədəniyyət və incəsənət xadimlərimiz həyatla vidalaşıb. Görkəmli dramaturq Elçin Əfəndiyev, Xalq artisti Arif Babayev, Şuşa Musiqili Dram Teatrının rəhbəri Yadigar Muradov, Xalq artisti Hacı Murad Yegizarov, Xalq Artisti Ramiz Quliyev, görkəmli rəqqasə Roza Cəlilova, Xalq artisti Əminə Yusifqızı, Xalq rəssamı Nazim Bəykişiyevin simasında mədəniyyət, ədəbiyyat və incəsənət aləmi böyük itki verib.



AT HƏRƏKƏT, SÜRƏT, AZADLIQ VƏ MÜSTƏQİLLİYİN RƏMZİ KİMİ QƏBUL EDİLİR

# HƏRƏKƏT, CƏSARƏT VƏ İLHAM İLİ

Şəxsi həyatda odlu at ili məhəbbət və güclü emosiyalar gətirəcək. Gözlənilməz tanışlıqlar, alovlu münasibətlər və əlaqələrə yenidən baxış mümkündür.



XANIM AYDIN

Qarşıdan Çin təqviminə görə odlu qırmızı at ili gəlir. Bu il ay təqvimi ili 17 fevral 2026-cı ildə başlayacaq və 5 fevral 2027-ci ildə başa çatacaq.

Çin astrologiyasında at hərəkət, sürət, azadlıq və müstəqilliyin rəmzidir. Od ünsürü bu xüsusiyyətləri daha da gücləndirərək güc, qətiyyət və hərəkətə çağırış qatır. Bu cür birləşmə hər 60 ildən bir baş verir və buna görə də 2026-cı il bir çox başlanğıclar üçün xüsusi və taleyüklü hesab olunur.

**KÖHNƏYƏ BAĞLI QALANLAR GERİDƏ QALA BİLƏRLƏR**

Odlu at ili adətən sürətli dəyişikliklər və cəsarətli qərarlarla əlaqələndirilir. Bu il təşəbbüs göstərməyə, risk etməyə və vərdiş olunmuş çərçivələrdən kənara çıxmağa hazır olan insanlar üçün əlverişlidir. Xüsusilə peşəkar sahədə - startaplar, innovativ layihələr və karyera sıçrayışları üçün uğurlu dövr ola bilər. Bununla yanaşı, il çevikliyi də tələb edir: köhnəyə həddən artıq bağlı qalanlar geridə qala bilərlər.

Yüksək aktivliyə baxmayaraq, il ərzində tarazlığı qorumaq vacibdir. Sürətli həyat tempi və impulsiv qərarlar emosional və fiziki tükənməyə səbəb ola bilər. Buna görə də istirahət və şüurlu şəkildə yavaşımaq uğurun əsas şərtlərindən biri olacaq.

Şəxsi həyatda Odlu at ili məhəbbət və güclü emosiyalar gətirəcək. Gözlənilməz tanışlıqlar, alovlu münasibətlər və əlaqələrə yenidən baxış mümkündür. Azadlığa canatma daha qeyri-ənənəvi münasibət formalarına maraq yarada bilər. Cütlüklər üçün isə bir-birinə daha diqqətli olmaq tövsiyə olunur: od enerjisi həm yaxınlaşdıran, həm də münaqişə yaradan amil ola bilər.

İlin əsas rəngləri qırmızı və qızılıdır. Bu çalarlar enerji, uğur və rifahı simvolizə edir. Onlardan interyerdə və bayram bəzəklərində də istifadə etmək olar. Məkanı ağac, keramika və ya metal kimi təbii materiallardan hazırlanmış at fiqurları ilə tamamlamaq da məsləhətdir.

Qırmızı at irəliyə doğru hərəkət, cəsarət və ilham ilidir.

**ƏDALƏT TƏRƏFDARLARI ÜSTÜNLÜK QAZANACAQLAR**

Astroloq Səbuhi Rəhimli deyir ki, qarşıdan gələn qırmızı at ilində Avesta təqviminə görə Xeyir və Şər qüvvələri eyniləşəcək: "Ötən dövrlərdə zalımlar daha üstün olurdu. Amma indi güc balansı eyni səviyyəyə qalxacaq. Bu isə qızğın mübarizələrə səbəb olacaq. Təxminən may ayına qədər davam edən mübarizədə ədalət tərəfdarları üstünlük qazanacaqlar. Amma onu əldə saxlamaq da asan olmayacaq. İlin astronomik işarəsi olan at gücü məqsədyönlü səyləri simvolizə edir. Yeni dövr həm dinamizm, həm də çətinliklər gətirir. İlin simvolu həvəs, sürət, qətiyyət təcəssüm etdirir. Alovlu at enerji, hərəkət və transformasiyanı simvolizə etdiyi üçün il boyu gərgin anların da olacağını göstərir".



## "ODLU AT O KƏSLƏRƏ ZİYAN VURACAQ Kİ..."

"At inanılmaz dözüm, güc və iradəyə malikdir", - deyən astroloq bildirir ki, bu işarə altında doğulanlar öz dəyərlərini bilirlər, dostluğa həvəslidirlər, sevgi dolu olmağı bacarırlar, sədaqətli olmaqları ilə seçilirlər: "Atla yaxşı münasibət qursanız, yəni qarşıdan gələn illə düzgün davransanız, heç bir problem yaşamayacaqsınız. O, sizə söykənəcəyiniz bir çiyin təklif edəcək, vacib, mühüm məsləhətlər verəcək. At ili bir çox müsbət dəyişikliklər vəd edir. At həmişə irəli qaçmaq və həyatdan zövq almaq istəyir. Od elementi ilin xüsusiyyətlərinə bir az da rəng verir. Odlu at dualistdir – həm isidir, həm də yandırır. Buna görə də təhlükələri nəzərə almaq lazımdır".

"Astroloji mənbələrə görə, qırmızı at ilinin üzərinə düşən əsas vəzifə milli, dini və mistik məsələlərin həllidir. İnsanları narahat edən qlobal problemlər, dünyanın gərdişi, insanların birləşməsi, vətənimiz olan Yer kürəsinin qorunması 2026-cı ilin əsas öhdəliklərindən biridir", - deyə Səbuhi bəy vurğulayır.

"Bu il ədalət tərəfdarları, yüksək bilik sahibləri, incəsənət adamları, ilahi missiyaya xidmət edənlər, yəni ruhanilər, ilahiyyatçılar, möminlər, bir sözlə, tanrıya sığınanlar üçün uğurlu olacaq", - deyən Səbuhi bəy bildirir ki, əgər hər kəs "Avesta"da deyildiyi kimi, xeyirxah sözə, əmələ xidmət etsə, bəxtləri gətirəcək. At o kəslərə ziyan vuracaq ki, neqativ işlərlə məşğul olurlar.

**QƏFİL YÜKSƏLİŞLƏR VƏ ENİŞLƏR DÖVRÜ**

"At ilində qəfil yüksəlişlər də olur, qəfil enişlər də. Bu il tanrı sevgisini ürəyində gəzdirənlər, yaxşı olanlar gözləmədiyi halda zirvəyə qalxa bilərlər. Amma rahat ömür sürüb, başqalarına zülm edənlər, Allahı unudanlar acı nəticəylə üzləşə bilərlər. At ilində bütün bunlara hazır olmaq lazımdır. Bu il standartdan kənar olaylar da mümkündür. İnsanlar baş verənlərin məntiqini anlamaqda çox çətinlik çəkə bilərlər", - deyə astroloq qeyd edib.



Səbuhi Rəhimli

KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ KİMİ QEYD ETDİYİMİZ 2025-Cİ İL HƏM DƏ MÖHTƏŞƏM ZƏFƏRİMİZİN BEŞİNCİ İLİ KİMİ TARİXƏ DÜŞDÜ

# 2025-Ci İLİN ƏN YADDAQALAN HADİSƏLƏRİ



Konstitusiya və Suverenlik İli kimi qeyd etdiyimiz bu il bir sıra ciddi siyasi və iqtisadi uğurlarla yadda qaldı. Vaşinqtonda imzalanan tarixi razılaşmalar, Zəngəzur dəhlizi ilə bağlı atılan addımlar, Rusiya ilə yaşanan gərginlik ilin ən diqqətçəkən hadisələri oldu.



## TARİXİ VAŞİNQTON RAZILAŞMALARI



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Yola salmağa hazırlaşdığımız 2025-ci il bir çox mühüm siyasi, iqtisadi və sosial hadisə ilə yadda qaldı. Konstitusiya və Suverenlik İli kimi qeyd etdiyimiz bu il həm də tarixi Zəfərimizin beşinci ili kimi tarixə düşdü. Qələbəmizin yubiley ilində yaşananlara birgə nəzər salaq...

Azərbaycanın və ümumilikdə Cənubi Qafqazın siyasi həyatında ən mühüm hadisə təbii ki, avqustda reallaşan tarixi Vaşinqton görüşü idi. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə avqustun 8-də Prezident İlham Əliyev, Prezident Donald Tramp və Baş nazir Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannaməni imzaladılar. Həmçinin Azərbaycan və Ermənistan sülh sazişi mətninin paraflanmasına da imza atdılar. Bununla da uzun illər davam edən Azərbaycan-Ermənistan münaqişəsində rəsmən sülh əldə edilmiş oldu. Bu saziş iki ölkə arasında sülh dialoqunun davamlı hal almasına, həmçinin Azərbaycan Prezidentinin Ermənistana qarşı tətbiq olunan tranzit embarqosunu ləğv etməsindən sonra müxtəlif məhsulların Azərbaycan ərazisindən keçməklə Ermənistana daşınmasına şərait yaratdı. Ümumilikdə isə 2025-ci il iki ölkə arasında sülhün əldə olunması istiqamətində ən müsbət və nəticəyönümlü il kimi yadda qaldı.

## ZƏNGƏZUR DƏHLİZİ – TRAMP YOLU

Ölkəmiz üçün iqtisadi sahədə ən mühüm proseslərdən biri Zəngəzur dəhlizi (Tramp yolu) ilə bağlı ciddi addımların atılması oldu. Vaşinqton görüşü nəticəsində Ermənistan və ABŞ-nin birgə reallaşdıracağı bu dəhliz Azərbaycanın Naxçıvanla birbaşa əlaqəsini təmin edəcək. Bununla belə, il ərzində sözügedən istiqamətdə İranla "Araz dəhlizi"nin yaradılması istiqamətində də intensiv işlər aparıldı. Artıq Zəngəzur dəhlizinin Azərbaycan seqmentində işlər son mərhələyə qədəm qoyub.

## KAHRAMANMARAŞ ŞƏHƏRİNDƏ "AZƏRBAYCAN" MƏHƏLLƏSİ




İyunun 19-da Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimi iki qardaş ölkənin hər bir məsələdə yan-yana dayandığının göstəricisi idi. Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılan "Azərbaycan" məhəlləsində 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub.

## RUSİYA İLƏ GƏRGİNLİK VƏ YUMŞALMA

2024-cü ilin sonunda Rusiya ərazisində AZAL-a məxsus mülki təyyarənin vurulması və çoxsaylı insan tələfatının qeydə alınması 2025-ci il ərzində Rusiya və Azərbaycan arasında münasibətlərdə ciddi gərginliklərə yol açdı. Uzun müddət davam edən və rəsmi Bakının haqlı tələblərinin yerinə yetirilməməsi fonunda gərginləşən bu münasibətlərdə oktyabrda Düşənbədə Prezident İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasındakı görüşdən sonra yumşalma qeydə alınmağa başladı. Tərəflər münasibətlərin tədricən əvvəlki səviyyəyə qaytarılması barədə razılıq əldə etdilər.



## PEZEŞKİANIN BAKI VƏ ŞUŞA SƏFƏRİ

Yola salmağa hazırlaşdığımız ilin ən mühüm siyasi olaylarından biri də İran Prezidenti Məsud Pezeşkianın aprel ayında Azərbaycana səfəri və Bakının terror aktından sonra fəaliyyətini dayandırmış səfirliyinin Tehranda yenidən açılmasına razılıq verməsi oldu. Məsud Pezeşkianın həm Bakıya, həm də Şuşaya səfəri zamanı müşahidə olunan səmimiyyət iki ölkə arasındakı münasibətlərin də normallaşmağa doğru irəlilədiyinin göstəricisi idi.

## ŞUŞA YENİ DİPLOMATİK PAYTAXT STATUSUNDA

2025-ci il həm də Xankəndinin və Şuşanın yeni diplomatik mərkəzlər olması ilə yadda qaldı. İyulun 4-də Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü keçirildi. Bu Zirvə görüşündə çoxsaylı dövlət və hökumət başçıları iştirak etdi. Azərbaycana səfər edən bir çox dövlət başçıları ilə ikitərəfli müzakirələr və qarşılanma mərasimləri Şuşada reallaşdı.

## İLHAM ƏLİYEVİN ÇİN SƏFƏRİ



Avqustun sonlarında Prezident İlham Əliyevin Çinə səfəri, Tiencin şəhərində Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü də yaddaqalan hadisə oldu. Prezident İlham Əliyevi "mənim əziz dostum" deyərək salamlayan Çin Xalq Respublikasının Sədri dövlətimizin başçısına onun dəvətini qəbul edərək "ŞƏT plyus" formatında Zirvə toplantısında, həmçinin Çinin xarici hərbi müdaxilə və faşizm üzərində qələbəsinin 80 illiyi münasibətilə keçiriləcək təntənəli tədbirlərdə və hərbi paradda iştirakına görə təşəkkürünü bildirdi.

## TÜRK DÜNYASININ LİDERLƏRİ QƏBƏLƏDƏ TOPLAŞDI



Oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirildi. Zirvə görüşündə Prezident İlham Əliyevlə yanaşı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev iştirak etdilər. Qəbələ Zirvəsi Azərbaycanın Türk dünyasında artan nüfuzunun və əlaqələrin qurulmasında mühüm körpü olduğunun göstəricisi idi.

2025-ci il ərzində Azərbaycanın qalib dövlət olaraq dünyada artan nüfuzunun daha bir göstəricisi oktyabrın 13-də Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın və Misir Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirakı oldu.

Prezident İlham Əliyevin sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında tarixi çıxışı, ardınca oktyabrın 2-də Danimarkanın paytaxtı Kopenhagen şəhərində "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirakı da 2025-ci ilin əsas siyasi hadisələri idi.



## QƏLƏBƏNİN BEŞİNCİ İLDÖNÜMÜNƏ HƏSR OLUNAN PARAD

Noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirildi. Paradda Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif iştirak etdilər. Hərbi paradda nümayiş etdirilən texnika və sursatlar Azərbaycan Ordusunun ən müasir formada döyüş təchizatına malik olduğunu, müdafiə sənayemizin isə yeni inkişaf mərhələsinə keçdiyini bütün dünyaya nümayiş etdirdi. Şəxsi heyətin tam formada xüsusi təyinatlı qüvvələrdən, müasir dövrün tələblərinə uyğun olaraq yeni yaradılmış hərbi birləşmələrdən ibarət olması Azərbaycanda Ordu quruculuğu prosesinə ən yüksək diqqətin olduğunun təzahürüdür.

## MƏRKƏZİ ASİYA DÖVLƏT BAŞÇILARININ 7-Cİ MƏŞVƏRƏT GÖRÜŞÜ



Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü də Azərbaycan üçün mühüm qərarların qəbulu ilə yadda qaldı. Prezident İlham Əliyevin də iştirak etdiyi görüşdə ölkəmiz Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına rəsmən üzv qəbul edildi. Bununla da Azərbaycan-Mərkəzi Asiya əlaqələrinin inkişafında yeni bir mərhələnin başlanğıcı qoyuldu. Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpü quruldu.

## İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN BƏRPASI



Böyük Qayıdış proqramının uğurla reallaşması da 2025-ci ildə dövlətin əsas prioritetlərindən birini təşkil etdi. İl ərzində dövlət başçısının işğaldan azad edilən ərazilərə mütəmadi səfərləri, doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlərlə görüşləri, yeni yaşayış məntəqələrinin, istehsalat müəssisələrinin təməlinin qoyulması bu sahənin gələn il də prioritet təşkil edəcəyini göstərir. Bu zamana qədər işğaldan azad edilmiş ərazilərdə 62 min insan məskunlaşıb, bərpa prosesinə isə 22 milyard manatdan çox vəsait yönəldilib.

## PENSİYALAR VƏ MAAŞLAR ARTIRILDI

2025-ci ilin əvvəli həm də milyonlarla insanın sosial-iqtisadi həyatına əhəmiyyətli təsir göstərən bir sıra qərarların qəbulu ilə yadda qaldı. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə yanvarın 1-dək təyin edilmiş bütün pensiyalar Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata əsasən, 2024-cü il üzrə orta aylıq əməkhaqqının illik artımına uyğun olaraq 8,1 faiz indeksləşdirilməklə artırıldı. Pensiyaların indeksləşdirilərək artırılması bütün pensiyaçılara, yəni 1,1 milyon pensiyaçıya şamil olundu. Reallaşdırılan yeni sosial islahat paketi çərçivəsində 2025-ci ilin əvvəlindən minimum əməkhaqqı 345 manatdan 16 faiz artımla 400 manata çatdırıldı. Habelə fevralın 1-dən minimum pensiyanın 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılması reallaşdı. Bir çox sahələrdə çalışan insanların maaşları da müvafiq qərarlarla artırıldı.

## ƏN BÖYÜK AMNİSTİYA AKTI

Prezident İlham Əliyev tərəfindən irəli sürülən amnistiya aktı təşəbbüsü minlərlə ailənin sevincinə səbəb oldu. Dövlətin öz vətəndaşına münasibətdə humanist siyasətinin bariz nümunəsi olaraq dəyərləndirilən bu təşəbbüs müstəqillik tarixinin ən böyük amnistiya aktı kimi yadda qaldı. Beləliklə, 2025-ci ilin sosial, iqtisadi və siyasi mənzərəsi yola salmağa hazırlaşdığımız ilin Azərbaycan dövləti və xalqı üçün nə dərəcədə uğurlu və yaddaqalan il olduğunu bir daha göstərir. Əldə olunan nəticələr və qarşıya qoyulan hədəflər gələcək illərdə bu uğurların ardıcıl və davamlı olacağının carçısıdır.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# SOCAR-IN REYTİNQ ÜZRƏ PROQNOZU YÜKSƏLDİLİB

Növbəti 12 ay ərzində SOCAR-ın reytinqinin yüksəldilməsi iki əsas amildən asılı olacaq. Birinci amil Azərbaycanın kredit qabiliyyətinin daha da möhkəmlənməsidir. İkinci amil isə SOCAR-ın müstəqil kredit profilinin "BB-" səviyyəsindən aşağı olmamasıdır.




"S&P" beynəlxalq reytinq agentliyi Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) reytinqi üzrə proqnozunu "Stabil"dən "Müsbət"ə yüksəldib, reytinqini isə "BB" səviyyəsində təsdiqləyib. Bu barədə "Report" "S&P"yə istinadən xəbər verir.

"Müsbət proqnoz SOCAR-ın kredit göstəricilərinin və maliyyə siyasətinin onun reytinqinin yüksəldilməsi imkanını əks etdirir. Reytinqin yüksəldilməsi isə şirkətin müstəqil kredit profilinin (SACP) - "BB-" ilə müqayisə edilə bilən səviyyədə saxlanılması şərtilə Azərbaycanın kredit qabiliyyətinin daha da yaxşılaşacağı halda mümkündür", - məlumatda qeyd olunur.

Xatırladaq ki, 2025-ci il noyabrın 12-də "S&P" SOCAR-ın müstəqil kredit profilini "B"dən "BB-"yə dəyişdikdən sonra onun reytinqini "BB-"dən "BB"yə yüksəltmişdi.

### MALİYYƏ SİYASƏTİNİN ŞƏFFAFLIĞI

Agentlikdə qeyd ediblər ki, reytinqin yüksəldilməsi SOCAR-ın maliyyə siyasətinin şəffaflığının və məlumatların açıqlanması səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşmasının nəticəsidir ki, bu da şirkətin əsas fəaliyyət göstəricilərinin proqnozlaşdırılmasını daha da mümkün edib. SOCAR tamamilə dövlətə məxsusdur və onun nəzarəti altındadır, bununla əlaqədar olaraq "S&P" maliyyə çətinliklərinin yaranacağı halda dövlət dəstəyinin göstərilməsi ehtimalını çox yüksək qiymətləndirir.

Müvafiq olaraq, son zamanlar Azərbaycanın suveren kredit keyfiyyətinin, o cümlədən SOCAR kimi dövlət şirkətlərini dəstəkləmək üçün maliyyə imkanlarının güclənməsi şirkətin kredit profilinə də müsbət təsir göstərir.




### OXŞAR QƏRARIN MƏNTİQİ DAVAMI

"S&P" vurğulayır ki, SOCAR üzrə müsbət proqnoz Azərbaycanın suveren reytinqi üzrə oxşar qərarın məntiqi davamıdır və bir sıra amillərlə şərtlənir.

Xüsusilə agentlik Azərbaycanla Ermənistan arasında sülh prosesinin irəliləməsi fonunda gərginliyin əhəmiyyətli dərəcədə azaldığını qeyd edir. "S&P" hesab edir ki, bu dəyişikliklər münaqişənin yenidən başlanması riskini azaldıb və bunun davam edəcəyi təqdirdə investorların etimadını dəstəkləyə, həmçinin Cənubi Qafqazda regional ticarət və nəqliyyat əlaqələrinin yaxşılaşması hesabına daha yüksək ortamüddətli iqtisadi artıma töhfə verə bilər.

### ARDNF ƏHƏMİYYƏTLİ AKTİVLƏRLƏ DƏSTƏKLƏNƏN GÜCLÜ BÜDCƏ

Bundan başqa, agentlik Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) əhəmiyyətli aktivləri ilə dəstəklənən son dərəcə güclü büdcə və xarici buferlərə diqqət çəkir. "S&P"nin qiymətləndirmələrinə görə, dövlət idarəetmə sektorunun aktivlərinin dayanıqlı mövqeyi və dövlət borcunun aşağı səviyyəsi böyük iqtisadi dayanıqlığı təmin edir və karbohidrogen qiymətlərinin dəyişkənliyinin təsirini yumşaltmaqla makroiqtisadi sabitliyi dəstəkləyir.

"Biz geosiyasi risklərin azalması və maliyyə buferlərinin qorunması fonunda ortamüddətli perspektivdə Azərbaycanın fundamental kredit göstəricilərinin yaxşılaşacağını gözləyirik. Rəsmi olaraq sülh müqaviləsinin imzalanmamasına baxmayaraq, tərəflərin götürdüyü öhdəliklər və onların həyata keçirilməsi istiqamətində atılan ilk addımlar onilliklər ərzində ikitərəfli münasibətlərin ən konstruktiv mərhələsidir və investisiya mühitinin yaxşılaşmasına, eləcə də iqtisadi potensialın artmasına töhfə verə bilər", - "S&P" qeyd edir.

### İKİ ƏSAS AMİLDƏN ASILI OLACAQ

Agentlikdə həmçinin vurğulayıblar ki, növbəti 12 ay ərzində SOCAR-ın reytinqinin yüksəldilməsi iki əsas amildən asılı olacaq. Birinci amil Azərbaycanın kredit qabiliyyətinin daha da möhkəmlənməsidir. Bu, lazım gələrsə, SOCAR-ı dəstəkləmək üçün onun maliyyə imkanlarının artmasının göstəricisi olacaq. İkinci amil isə SOCAR-ın müstəqil kredit profilinin "BB-" səviyyəsindən aşağı olmaması, həmçinin şirkətin maliyyə siyasətinin və kredit göstəricilərinin agentliyin hədd göstəricilərinə uyğun olmasıdır.



# "Talassemiyasız həyat naminə"

"Global Media Group"a daxil olan şirkətlərin əməkdaşları könüllü şəkildə qan veriblər. Aksiyanın məqsədi qan ehtiyatlarının artırılmasına dəstək olmaq, sağlam həyat tərzini təşviq etmək və cəmiyyətdə humanitar dəyərlərin gücləndirilməsinə töhfə vermək olub.

"Global Media Group" sosial layihələrin həyata keçirilməsini korporativ sosial məsuliyyət siyasətinin əsas istiqamətlərindən biri hesab edir. Bu yanaşma çərçivəsində Səhiyyə Nazirliyinin Respublika Qan Bankı tərəfindən həyata keçirilən "Talassemiyasız həyat naminə" proqramına dəstək olaraq təşkil edilən könüllü qanvermə aksiyasına "Global Media Group" da qoşulub.

Aksiya çərçivəsində "Global Media Group"un şirkətlərinin əməkdaşları könüllü şəkildə qan verərək ehtiyacı olan insanlara dəstək ifadə ediblər. Aksiyanın məqsədi qan ehtiyatlarının artırılmasına dəstək olmaq, sağlam həyat tərzini təşviq etmək və cəmiyyətdə humanitar dəyərlərin gücləndirilməsinə töhfə verməkdir.

"Global Media Group"un əməkdaşları aksiyada böyük həvəslə iştirak edərək sosial məsuliyyət nümunəsi göstəriblər. Bu təşəbbüs şirkətin yalnız media fəaliyyətləri ilə deyil, həm də cəmiyyətin rifahına töhfə verən layihələrlə də önə çıxmasını göstərir.

"Global Media Group" bu kimi sosial və humanitar təşəbbüsləri gələcəkdə də davam etdirməyi planlaşdırır və cəmiyyətin ehtiyaclarına həssas yanaşmağa davam edəcək.

Azərbaycanın ən böyük media şirkətlər qrupundan biri olan "Global Media Group" 2017-ci ildən fəaliyyətə başlayıb. "Global Media Group"a Azərbaycanda və ölkə xaricində fəaliyyət göstərən televiziya kanalları, informasiya agentlikləri, xəbər portalları, qəzetlər və digər şirkətlər daxildir.

"Global Media Group" haqqında daha ətraflı məlumat əldə etmək üçün www.gmg.az veb-saytına və ya şirkətin müxtəlif sosial şəbəkələrdə olan səhifələrinə - "Facebook", "Instagram", "LinkedIn" və "YouTube" baxa bilərsiniz.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2637
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
30 DEKABR ÇƏRŞƏNBƏ AXŞAMI 2025



# YENİ İLİ HARADA QEYD ETMƏLİ?

Son illər bayramı evdən kənarda keçirmək artıq ənənəyə çevrilməyə başlayıb. İnsanlar Yeni il gecəsində də pul xərcləməkdə xəsislik etmirlər. Turist şirkətləri həm yerli, həm də xarici ölkələri əhatə edən seçim imkanı təqdim edirlər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



2026-cı il artıq qapıdadır. Bəziləri Yeni ili qeyri-adi bir yerdə qarşılamaq və tətilini unudulmaz keçirmək üçün səyahət etməyi sevir. Səyahət baxımından Yeni il tətili bayram təqviminin ən güclü hərəkətverici qüvvələrindən birinə çevrilib. “Hansı ölkəyə gedək?”, “2025-lə hansı qitədə vidalaşaq?”, “Yeni ili harada qarşılayaq?” kimi sualların cavabında isə tərəddüd edənlər çoxdur. Əlbəttə, Yeni il gecəsi üçün ikonik atəşfəşanlıq, canlı əyləncələr və unikal ənənələri özündə birləşdirən ölkələr də, şəhərlər də kifayət qədərdir. Hər il şəhərlər daha möhtəşəm, mədəni cəhətdən fərqli təqdimatlar üçün yarışırlar. BƏƏ, Tailand, Bali, Sinqapur, İsrail, Misir, Yaponiya, Avropa ölkələri, ABŞ, Kanada... Bu ölkələrdən hansını seçmək - dəniz və günəş, çimərlik, yoxsa şaxta arasında seçim həm büdcə, həm zövq, həm də tətilin müddəti ilə bağlı olur. Nağıl kimi, mədəni və ya macəra dolu şənliklər üçün Vyana və Reykyavik, əyləncələr üçün Las Veqas və Mayamini, lüks üçün Saint-Barthelemy adalarını, rəngli atəşfəşanlıq üçün Sidney kimi seçimlər edənlər var. Təbii ki, tətilini mənalı keçirmək, bayramı yaddaqalan etmək üçün həm də ilk sual budur: dünyanın narahat vaxtında Yeni ili xaricdə əlverişli, maraqlı və təhlükəsiz hansı ölkədə qeyd etmək lazımdır?

### UNUDULMAZ TƏTİL ARZUSU

Dünyanın ən böyük səyahət bələdçisi nəşriyyatı olan “Lonely Planet” Yeni il bayramı üçün ideal olan doqquz Avropa şəhərinin siyahısını tərtib edib. Buradakı tətil, şübhəsiz ki, büdcəsi imkan verən və zövqlü səyahətsevərlər üçün unudulmaz olacaq. “Parisin işıqlarına baxın”, “Londondakı bir baxış platformasından atəşfəşanlığı izləyin”, “Lissabonda gecə yarısı kişmiş yeyin”, “Berlində bütün gecə konsertlərdə əylənin”, “Dublində Yeni il gecəsi festivalına qoşulun”, “Edinburqda Hogmanay-ı qaçırmayın”, “Yeni ili Stokholmda şeirlə qeyd edin”, “Madriddə bütün gecəni rəqs edin”, “Norveçin Tromsö şəhərində şimal işıqları əyləncəsindən zövq alın”, - deyə nəşr yazır.



Əfsun Əhmədov

## “Azərbaycan daxilində qiymətlər bahadır”

Son illər bizim insanlarımız da bayram tətillərini evdən kənarda keçirməyə ənənəyə çevirməyə başlayıb.

Turizmçi Əfsun Əhmədov bildirir ki, Yeni il bayramı ərəfəsində müxtəlif turpaketlər hazırlanır: “Bu paketlər daxili turizmlə bərabər xarici ölkələrin turizmini də əhatə edir. Xarici ölkələrə maraq çox böyükdür. İnsanlar iki kateqoriyaya bölünüb: qış mövsümünü yaşamaq istəyənlər Avropa istiqamətinə - Fransa, Almaniya, İspaniya, İtaliya və s. kimi ölkələrə gedirlər. Gürcüstana maraq göstərənlər daha çoxdur. Orada şənliklər gözəl təşkil olunduğuna və qiymətlər münasib olduğuna görə bu ölkəni daha çox seçirlər. Həmçinin siyahıda ekzotik ölkələr də var. Hazırda insanlarımız Tailand, Yaponiya, Vyetnama səfər edirlər. Çinlə viza rejimi ləğv olunandan sonra bu ölkələrə də maraq çoxalıb. Dubay həmişəki kimi ilk onluqda olan yerlərdəndir”.

Turizmçinin sözlərinə görə tətil ərəfəsində bir çox aviaşirkətlər endirim kampaniyaları edirlər: “Hətta Dubaya yanvar ayının ortalarına 71 manata aviabilet almaq mümkündür. Burada aviaşirkətlərin, hotel şəbəkələrinin və digər xidmət sektorlarının təklif etdiyi endirim kampaniyalarından da çox şey asılıdır. Səyahət edənlər büdcəyə qənaət baxımından bu məqamlara daha çox fikir verirlər. Avropaya insan ən azı 6 günlük səfər edir. Məsələn, Yeni il bayramı ərəfəsi üçün aviabilet daxil olmaqla İtaliyaya səfər aşağı seqmentdə 3 min dollara qədər çıxır. Bu qiymət seçimdən asılı olaraq - aşağı, orta və ya yuxarı büdcəli hotelləri əhatə edir. Ümumiyyətlə, qiymətlər paketlərdən və təklif edilən məhsuldan asılıdır. Qiymətdə aviabilet, hotelin seçimi, gün sayı rol oynayır”. Bayram tətilini ölkə daxilində qeyd etməyə gəlincə, turizmçinin sözlərinə görə, bir sıra hotellər var ki, artıq Yeni il şənliyi ilə bağlı reklamlarını yerləşdiriblər: “Kiçik bir ailə üçün təkcə hotelin qiyməti 600-700 manatdır. Ümumi qiymət isə təxminən 1500-2000 manat civarında dəyişir. Seçim hotelin otaq kateqoriyasına, restoran xərclərinə görə dəyişir. Nəqliyyat və digər xərclər əlavə ödənişlədir. Azərbaycan daxilində qiymətlər həddindən artıq bahadır. Bununla belə, bir çox turistik yerlər var ki, tam dolub”.



Rəhman Quliyev

## Əsas seçim Türkiyə və Gürcüstandır

Turizmçi Rəhman Quliyevin sözlərinə görə, Azərbaycanda nəinki Yeni ildə, il boyu Türkiyə və Gürcüstan bayram tətilləri üçün çox populyardır: “Xaricə tətilə çıxan azərbaycanlıların böyük hissəsi Türkiyəyə gedir (təxminən 40-42% ). Türkiyə həm alış-veriş, həm turizm, həm ailəvi səfərlər üçün çox populyardır. Gürcüstan da Azərbaycanın qonşusu olaraq çox tez-tez seçilir (təxminən 10-11% səviyyəsində). Bu ölkədə qiymətlər digərlərinə baxanda daha münasibdir”.

Turizmçinin sözlərinə görə, təxminən 14-20% Azərbaycan vətəndaşı Rusiyaya səfər edir. Həmçinin Dubay şəhəri - tez-tez səfər edilənlər siyahısındadır (təxminən 9-10%). Qalan səfərlər Avropa, Orta Asiya və digər ölkələr (təxminən 20-23%) arasında bölüşdürülür.

### “İNSANLARIMIZ DAHA ÇOX XARİCİ ÖLKƏLƏRƏ ÜZ TUTURLAR”

Turizmçi Anar Həsənov da bizim ölkəmizdə bayram ərəfəsində turpaketlərin qiymətlərinin fantastik həddə olduğunu deyir: “Buna görə insanlarımız daha çox xarici ölkələrə üz tuturlar. Hazırda azərbaycanlıların bayram tətilini qeyd etmək üçün seçdiyi ölkələr sırasında Şri Lanka, Tailand, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Maldiv adaları və Avropa ölkələri üstünlük təşkil edir”.



Anar Həsənov

# GƏLƏN İL İNTERNET DAHA SÜRƏTLİ OLA BİLƏR

2026-cı ildə internetin alt limitinin 150 Mbit/s səviyyəsində tənzimlənməsi gündəmə gələ bilər. Daha keyfiyyətli internetin qiymət artımına səbəb ola biləcəyi ehtimalı mövcud olsa da, arzuolunan variant qiymət dəyişmədən keyfiyyətin yüksəldilməsidir.




SEVİNC ABBASOVA

Gələn il Azərbaycanda internetin keyfiyyətini və sürətini artırmaq üçün konkret addımlar planlaşdırılır. İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA) ilə internet provayderləri arasında keçirilmiş son görüş göstərir ki, bu istiqamətdə texniki baza formalaşsa da, real istifadəçi təcrübəsinin inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması üçün hələ də kompleks və sistemli addımlara ehtiyac var.

Maraqlıdır, yeni ildən internetin keyfiyyətinin və sürətinin artırılması üçün hansı addımlar atıla bilər?

### KONKRET HƏDƏFLƏR MÜƏYYƏNLƏŞDİRİLİB

İKTA ilə internet provayderlər arasında baş tutan görüşdə internetin sürətinə təsir edən amillər, beynəlxalq təcrübə geniş şəkildə müzakirə olunub. Planlara magistral və backhaul xətlərin modernizasiyası daxildir ki, bu da artan trafik fonunda sürət azalmasının və gecikmələrin qarşısını almağa yönəlib. Eyni zamanda evdaxili "Wi-Fi" sistemlərinin optimallaşdırılması, köhnə modemlərin əvəz edilməsi və "Wi-Fi 6" standartının tətbiqi istifadəçilərin real sürət əldə etməsinə imkan verəcək. Marşrutlanmanın və beynəlxalq çıxışların təkmilləşdirilməsi internetin daha stabil işləməsinə töhfə verəcək, CDN-lərin ölkə daxilində yerləşdirilməsi isə videoların və onlayn kontentin daha sürətli açılmasını təmin edəcək. Pik saatlarda şəbəkə yüklənməsinin balanslaşdırılması, XGS-PON texnologiyalarına keçid və istifadəçilərin maarifləndirilməsi də kompleks planın vacib hissələrini təşkil edir.




Mütəxəssislərin fikrincə, bu addımlar sistemli şəkildə həyata keçirilərsə, gecikmələr azalacaq, istifadəçi təcrübəsi yaxşılaşacaq və ölkədə internet xidmətləri mərhələli şəkildə daha yüksək keyfiyyət səviyyəsinə çatacaq.

### 150 MBİT/S ZƏRURƏTƏ ÇEVRİLİB

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası (AİKTSA) İdarə Heyətinin sədri Elvin Abbasov qeyd edib ki, qlobal yanaşmada bir çox ölkədə internetin minimal sürəti tənzimləyici qurumlar tərəfindən müəyyən edilir və bu, artıq beynəlxalq praktikada qəbul olunmuş reallıqdır. Onun sözlərinə görə, Azərbaycanda bu məsələ hələ rəsmi şəkildə tənzimləyici tərəfindən təsdiqlənməsə də, faktiki vəziyyət göstərir ki, ölkə üzrə internetin alt limiti 100 Mbit/s səviyyəsində formalaşıb.

Ekspert vurğulayıb ki, internetin keyfiyyəti məsələsinə müasir texnoloji reallıqlar fonunda yanaşmaq lazımdır: "Bu gün dünyada məzmun getdikcə daha yüksək keyfiyyətli olur, videolar və vizual materiallar daha böyük həcm tələb edir. Məhz bu baxımdan 150 Mbit/s və daha yüksək sürətli internet artıq arzuolunan deyil, zəruri hala çevrilib".

Onun fikrincə, hazırda videozənglərin HD, Full HD, hətta 4K və 8K formatlarda aparılması, filmlərin 4K keyfiyyətində izlənməsi geniş yayılıb və bu imkanlardan rahat istifadə üçün 100–150 Mbit/s-dən yuxarı sürət tələb olunur. Bu tələblər təkcə əyləncə deyil, eyni zamanda uzaqdan təhsil və onlayn iş sistemləri üçün də vacibdir.

Mütəxəssis bildirib ki, internet istifadəsi yalnız bir cihaz və ya bir istifadə ssenarisi ilə məhdudlaşmır: "Ev təsərrüfatlarında internet modem vasitəsilə bir neçə cihaz arasında bölünür və nəticədə hər bir cihazın istifadə etdiyi real sürət azalır. Bu baxımdan, alt limitin aşağı olması ümumi istifadə keyfiyyətinə birbaşa təsir göstərir. Bütün bu amilləri nəzərə alaraq, beynəlxalq standartlara uyğun internetin minimal sürətinin müəyyən edilməsi artıq açılmazdır".

## HƏM KEYFİYYƏTDƏ, HƏM DƏ QİYMƏTDƏ DƏYİŞİKLİK OLA BİLƏR

E.Abbasovun qənaətinə görə, növbəti ildən etibarən bu yanaşma Azərbaycanda da aktuallaşa və 2026-cı ildə internetin alt limitinin 150 Mbit/s səviyyəsində tənzimlənməsi gündəmə gələ bilər. Onun sözlərinə görə, vətəndaş üçün əsas meyar texniki detallardan daha çox büdcə məsələsidir. Daha keyfiyyətli internetin qiymət artımına səbəb ola biləcəyi ehtimalı mövcud olsa da, arzuolunan variant qiymət dəyişmədən keyfiyyətin yüksəldilməsidir. Bununla belə, ekspert xatırladıb ki, provayderlər kommersiya qurumlarıdır və daha yüksək keyfiyyətli xidmətin müəyyən qədər baha olması iqtisadi baxımdan qaçılmazdır. Ekspertin fikrincə, həm internetin keyfiyyətində, həm də qiymətində cüzi dəyişikliklər 2026-cı il üçün aktual mövzulardan birinə çevrilə bilər.



### QANUNVERİCİLİK BAZASI KÖHNƏLİB

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın sədr müavini Qalib Qurbanov deyib ki, hazırda internet sahəsini tənzimləyən vahid və sistemli normativ sənəd mövcud deyil. Onun sözlərinə görə, internet xidmətləri üzrə standartlar müəyyənləşdirilməyib və Agentliyin fəaliyyətini tam təmin edəcək müvafiq normativ-hüquqi baza formalaşmayıb.

Ekspert qeyd edib ki, "Telekommunikasiya haqqında" mövcud qanun 2006-cı ildə qəbul olunub və sonrakı dövrdə texnologiyaların sürətli inkişafı, yeni çağırışların meydana çıxması bu qanunu faktiki olaraq köhnəldib. Hazırda yeni qanun layihəsi üzərində iş aparılsa da, proses ləng gedir. Məhz bu gecikmə Agentliyin fəaliyyətini lazımi səviyyədə təşkil etməsini məhdudlaşdırır. Normativ boşluqlar isə internet xidmətlərinin keyfiyyət göstəricilərinə birbaşa təsir edir.

Ekspert hesab edir ki, mövcud problemlərin həlli üçün ilk növbədə qanunvericilik bazası təkmilləşdirilməlidir.

## PROBLEM DAHA ÇOX MODEM VƏ Wİ-Fİ AVADANLIQLARINDAN QAYNAQLANIR

İKT üzrə mütəxəssis Vahid Qasımov hesab edir ki, hazırda Azərbaycanda stasionar internetin sürəti və texniki imkanları ciddi problem hesab edilmir: "Optik kabellər üzərindən ötürülən internetdə minimum sürət 100 Mbps-ə qədər artırılıb və istifadəçi bu sürəti əldə edə bilmirsə, səbəb çox vaxt provayderdən deyil, modem və Wi-Fi avadanlıqlarından qaynaqlanır. İnternetdə baş verən qısamüddətli qırılmalar isə əsasən fors-major hallarla, avadanlıq nasazlığı, xəttin zədələnməsi və elektrik kəsintiləri ilə bağlıdır. Burada əsas məsələ bu problemlərin operativ şəkildə aradan qaldırılmasıdır və provayderlər bunun üçün effektiv texniki xidmət göstərməlidirlər".



RESTORANLARDA TƏQDİM EDİLƏN SƏHƏR YEMƏYİ ŞƏHƏR HƏYATININ GÜNDƏLİK RİTMİNƏ ÇEVRİLİR

# MENYULAR BAHALAŞIR, PORSİYALAR KİÇİLİR



Qarşıdakı 2-3 ildə ölkədə səhər yeməyi mədəniyyəti daha da yayılacaq. Artan urbanizasiya və gənc nəsil arasında vərdiş dəyişikliyinin davam etməsi ilə, evdən kənarda səhər yeməyi adiləşir. Hazırda yaşlı nəslin çoxu üçün adi olmasa da, yeni nəsil bunu normaya çevirir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Bir zamanlar evdə ailəliklə edilən səhər yeməyi artıq restoranlarda edilməklə şəhər həyatının gündəlik ritminə çevrilib. Səhər saatlarında dolu kafe və restoranlar göstərir ki, bu, yalnız aclığı yatırmaq deyil, eyni zamanda sosial ünsiyyət və həyat tərzinin ifadəsidir. Son illərdə şəhərdə səhər yeməyi təklif edən məkanların sayı xeyli artıb, ənənəvi çay-pendir süfrəsindən tutmuş Avropa üslublu səhər yeməklərinə qədər geniş seçimlər təqdim olunur. Xüsusilə "səhər yeməyi setləri" bazarın əsas məhsuluna çevrilib. Maraqlıdır, hazırda bu istiqamətdə vəziyyət necədir? Müştərilər seçim edərkən nələrə üstünlük verirlər?

### QİYMƏTLƏR NECƏDİR?

Paytaxtda səhər yeməyi təqdim edən restoranlarda qiymətlər məkanın konsepsiyasına və təqdim olunan menyunun zənginliyinə görə dəyişir. Sadə və klassik səhər yeməyi təklif edən məkanlarda bir nəfər üçün qiymət 25-30 manat civarında olur. Daha zəngin menyular və əlavə xidmətlər təqdim edən məkanlarda bu göstərici 35-45 manata qədər yüksəlir. Ailə və dostlarla birlikdə yeyilən səhər yeməyi setlərində isə minimum dörd nəfərlik set 90-100 manat səviyyəsindədir. Restoran seçimində isə müştərilərin diqqət etdiyi əsas məqamlar arasında keyfiyyətli və təzə məhsullar, rahat sosial mühit və menyuların müxtəlifliyi ön plandadır.

### STATİSTİKA NƏ DEYİR?

Son illərdə Bakı şəhərində iaşə obyektlərinin dövriyyəsi də əhəmiyyətli artım göstərib. Dövlət Statistika Komitəsindən "Kaspi" qəzetinə verilən məlumata görə, 2023-cü ildə restoran və kafe sektoru üzrə illik dövriyyə təxminən 1,45 milyard manat təşkil edirdisə, 2024-cü ildə bu göstərici 1,70 milyard manata çataraq təxminən 17% artım göstərib. Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanda ictimai iaşə dövriyyəsinin ümumi dəyəri isə 1 milyard 990,2 milyon manat təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 13,2% çoxdur.

### "QİYMƏTLƏR NƏZƏRƏÇARPACAQ DƏRƏCƏDƏ YÜKSƏLİB"

Azərbaycan Hotellər və Restoranlar Assosiasiyasının İdarə Heyətinin sədri Samir Dübəndi deyir ki, son dövrdə Azərbaycanda ümumi inflyasiya və ərzaq qiymətlərinin artması fonunda ictimai iaşə sektorunda qiymətlər nəzərəçarpacaq dərəcədə yüksəlib: "Rəsmi statistikaya görə, yalnız 2025-ci ilin ilk on ayında iaşə xidmətlərinin qiymətləri 5,4% artıb. Bu artım ölkə üzrə orta inflyasiyadan bir qədər aşağı olsa da, müştərilər xüsusilə səhər yeməyi menyularında bunu aydın şəkildə hiss edirlər. İstehlakçılar bildirirlər ki, əvvəlki illə müqayisədə səhər yeməklərinin həm qiyməti bahalaşıb, həm də bəzi yerlərdə porsiyalar kiçilib. Restoranlar xərclərin artması səbəbindən bəzən eyni qiymətə daha kiçik porsiya təqdim etməklə balans yaratmağa çalışır".

"Premium seqmentdə restoranlar qiymətləri cəsarətlə artırır"

Mütəxəssisin sözlərinə görə, qiymət artımının səbəbi qida məhsullarının bahalaşması, işçi maaşlarının yüksəlməsi və icarə xərclərinin artmasıdır: "Məsələn, 2025-ci ildə ərzaq məhsullarının qiymətinin təxminən 8% artması restoranların xammal xərclərini birbaşa artırıb. Eyni zamanda, orta aylıq əməkhaqqının təxminən 9,5% yüksəlməsi və daşınmaz əmlakın bahalaşması icarə xərclərinə təsir edərək restoranların maya dəyərini artırıb. Nəticədə həm orta səviyyəli, həm də premium seqment restoranlar səhər yeməyi menyularının qiymətini yüksəltməyə məcbur olublar. Lakin orta və premium seqmentlər bu artımdan fərqli şəkildə təsirlənib. Orta səviyyəli kafelər və ailəvi yemək məkanları qiymətə həssas müştəriləri qoruyub saxlamaq üçün daha ehtiyatlı davranırlar, bəzən porsiyaları azaldıb eyni qiyməti saxlamağa çalışırlar. Premium seqmentdə isə müştərilər daha yüksək keyfiyyət və təcrübə gözlədiyindən restoranlar qiymətləri cəsarətlə artıra bilir".

## Pankek, omletlər, avokadolu tost...

Səhər yeməyi məkanı seçərkən azərbaycanlı müştərilərin diqqət yetirdiyi meyarlara gəldikdə isə, həmsöhbətimiz bildirir ki, başlıca meyarlar qiymət, keyfiyyət, menyu çeşidi və məkan təcrübəsidir (atmosfer və xidmət): " Bir çox müştəri üçün təzə və dadlı təamlar, gigiyena və təqdimat səviyyəsi əsas qərar faktorudur. Menyu çeşidi genişliyi də seçimə təsir edir. Məsələn, bəzi müştərilər klassik pendir-çörək, bal, qaymaqla kifayətlənsə də, digərləri müxtəlif beynəlxalq yeməkləri - pankek, omletlər, avokadolu tost, yaxud yüngül smuzi və yoğurt kimi sağlam alternativləri görmək istəyirlər. Azərbaycanda səhər yeməyi bazarı bu baxımdan xeyli rəngarəng olub. Artıq kafelər ənənəvi "kənd süfrəsi" konseptiylə yanaşı, Avropa tipli və ya türk üslubunda zəngin təamlardan ibarət menyular təklif edirlər. Çeşid nə qədər çox olarsa, fərqli zövqlü müştəriləri cəlb etmək bir o qədər asan olur".



Samir Dübəndi

### "SƏHƏR YEMƏYİ MƏDƏNİYYƏTİ DAHA DA İNKİŞAF EDƏCƏK"

S.Dübəndinin sözlərinə görə, qarşıdakı 2-3 ildə ölkədə səhər yeməyi mədəniyyəti daha da yayılacaq: "Artan urbanizasiya və gənc nəsil arasında vərdiş dəyişikliyinin davam etməsi ilə evdən kənarda səhər yeməyi daha da adiləşir. Hazırda yaşlı nəslin çoxu üçün adi olmasa da, yeni nəsil bunu normaya çevirir. İnsanlar işgüzar görüşlərini, dostlarla görüşmələrini tez-tez səhər yeməyi masası arxasında həyata keçirəcəklər ki, bu da həftəiçi səhər saatlarında da restoranlara tələbi artıra bilər. Həftəsonu "brunch" trendləri daha da populyarlaşacaq, "Sunday brunch" formatında xüsusi proqramlar (canlı musiqi, açıq bufet və s.) təkliflər artacaq. Dünyadakı sağlam qidalanma tendensiyası nəzərə alınsa, yaxın gələcəkdə menyuların daha da sağlamlaşacağını proqnozlaşdırmaq olar. Evdən kənarda səhər yeməyi etmək artıq lüks deyil - həyat tərzinə çevrilir".

XƏSTƏLİK SƏNGİDİYİNDƏN QADAĞALAR ARADAN QALDIRILIR, BAZARLARIN FƏALİYYƏTİNƏ İCAZƏ VERİLİR

# QİYMƏTLƏRİ STABİL SAXLAYACAQ ADDIMLAR

**Gürcüstandan diri heyvan idxalı və tranzitinə qoyulan qadağanın ləğvi ət bazarında təklifi artıracaq. Ekspertlər bu addımın qiymətlərin sabit qalmasına kömək edəcəyini bildirirlər. Bununla yanaşı, uzunmüddətli sabitlik üçün yerli istehsalın artırılmasının vacibliyi də vurğulanır.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) Gürcüstan mənşəli iri və xırdabuynuzlu heyvanların Azərbaycan ərazisindən tranzit daşınmasına və diri heyvan idxalına tətbiq olunan məhdudiyyətləri dekabrın 10-dan etibarən ləğv edib. Qərara əsasən, ölkə ərazisində heyvan bazarlarının fəaliyyəti də bərpa olunub. Bəs bu qərar yerli ət bazarına necə təsir edəcək?

### "BAZARLARDA ƏT KİFAYƏT QƏDƏR BAHALAŞIB"

Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü Azər Badamovun sözlərinə görə, Gürcüstandan ət idxalına tətbiq olunmuş qadağanın ləğv olunması bazara az da olsa təsirini göstərəcək: "Qadağa dabaq xəstəliyin yayılması ilə bağlı tətbiq olunmuşdu. Bununla əlaqədar heyvan bazarlarına da müəyyən məhdudiyyətlər qoyulmuşdu. İndi isə xəstəlik səngidiyindən qadağalar aradan qaldırılır və heyvan bazarlarının sərbəst fəaliyyətinə icazə verilir. Yəni həm bazarlarda məhdudiyyətlərin olmaması, həm də idxalın həyata keçirilməsi ət bazarında təklifləri çoxaldacaq. Ətin idxalına və satışına məhdudiyyətlərin aradan qalxması bazarda müəyyən qədər bolluq yaratmalıdır. Ona görə deyə bilərik ki, idxala tətbiq olunmuş məhdudiyyətin aradan qalxması, ən azından bazarlarda ətin qiymətini sabit saxlayacaqdır".

### "YERLİ İSTEHSAL TƏLƏBATI ÖDƏYƏ BİLMİR"

A.Badamov bildirdi ki, yerli istehsal ölkədə ətə olan tələbatı ödəyə bilmir: "İdxala tətbiq olunmuş məhdudiyyətin aradan qalxması yerli istehsalçılara da təsir göstərməyəcək. Ət bazarını sabit saxlamaq üçün mütləq şəkildə idxal olunmalıdır. Yerli istehsalçılar üçün isə ət istehsalı kifayət qədər rentabelli sahədir. Amma çox təəssüf olsun ki, çox hallarda kəndlilər ağır təsərrüfat işlərindən qaçırlar. O cümlədən mal-qaranı saxlamaq da istəmirlər. Əgər kəndlilər həmişə olduğu kimi heyvandarlığa üstünlük verərlərsə, həm daxili bazarı təmin edər, həm də kifayət qədər gəlir əldə edə bilərlər. Dövlətin müvafiq orqanları bazarlarda təklif və tələbi öyrənirlər. Təbii ki, təklif tələbdən artıq olacağı təqdirdə idxalın nizamlanması istiqamətində müvafiq addımlar atılacaq".



Azər Badamov

### "ÖRÜŞ SAHƏLƏRİ MÜTLƏQDİR"

Deputat yerli istehsalı necə artırmalı olduğumuzdan da bəhs etdi: "Ölkədə hər il ətin istehsalının azaldığına diqqət yetirsək deyə bilərik ki, idxal davamlı olmalıdır. İdxalın daha da artırılmasına ehtiyac var. Bazar rəqabətli olmalıdır. Rəqabətin formalaşması üçün isə təklif tələbi üstələməlidir. Belə olan halda bazar sabit qalar və ya da qiymətlərin dinamikası aşağıya doğru istiqamətlənər. Qiymətlərin sabitləşməsi üçün ilk növbədə yerli istehsal artmalıdır. Bu sahənin inkişaf etdirilməsi üçün örüş sahələri mütləqdir. Amma təəssüf ki, son illər örüş sahələrinin təyinatları dəyişdirilir. Bu da mal-qaranın saxlanması və yem bazasının formalaşdırılması ilə bağlı çətinliklər yaradır. Təbii ki, heyvandarlığın inkişaf etdirilməsinə şəraitin yaranması fermerləri stimullaşdıracaq".



Foto: Rüfət Mikayılov Global Photostock

## "YERLİ YEM İSTEHSALINI ARTIRA BİLSƏK..."

İqtisadçı Eyyub Kərimli də düşünür ki, hazırda dabaq xəstəliyi ilə əlaqədar yerli heyvan kəsimi məhdudlaşdırılıb. O səbəbdən ət istehsalında azalma müşahidə edilir. Lakin ətə olan tələb yüksəkdir: "İdxal daha çox qiymətlərin sabitləşməsinə öz töhfəsini verəcək. Bu baxımdan, Gürcüstandan idxal olunan iri və xırda buynuzlu heyvanlar qiymətlərin sabit saxlanmasına müsbət təsir göstərəcək. Bu, çox doğru addımdır. İdxalın həcmi artarsa, hətta qiymətlərin ucuzlaşmasını da görə bilərik. Bu, idxalın həcmindən asılıdır".

E.Kərimli bildirdi ki, sahibkarları təşviq etməliyik: "Qiymətlərin enməsi üçün ilk növbədə yerli istehsalı artırmalıyıq. Bunun üçün də örüş yerlərini böyütməliyik. Fermerlər üçün yeni imkanlar da yaradılmalıdır. Xüsusən də yem sahəsi çox vacibdir. Çünki yemi də xaricdən idxal edirik. Yerli yem istehsalını artıra bilsək, bu, bazarda ətin qiymətinin aşağı düşməsinə öz təsirini göstərəcəkdir".



Eyyub Kərimli

## "EHTİYATLAR FORMALAŞDIRMAQ LAZIMDIR"

İqtisadçı-ekspert Rəşad Həsənovun sözlərinə görə, qiymətlərin stabilləşməsi bir az mürəkkəb məsələdir. Bu istiqamətdə fundamental problem aqrar sektorun qeyri-məhsuldarlığıdır: "Bu da intensiv təsərrüfatlara keçidlə bağlıdır. Ailə təsərrüfatları istehsalatda 95 faiz paya malikdir. Ailə təsərrüfatlarında isə istehsalat qeyri-səmərəli təşkil olunur. Texnologiya tətbiq olunmur, aqrotexniki qaydalara əməl edilmir. Orta və uzunmüddətli dövrdə nəticə əldə etmək üçün kənd təsərrüfatı real inkişaf etməlidir. O səbəbdən də mövcud model tamamilə dəyişdirilməlidir. Daha çox məhsuldarlığa, elmi-texnoloji yeniliklərə əsaslanan, müasir suvarma üsullarını özündə ehtiva edən, iqlim dəyişikliklərinə dözümlü kənd təsərrüfatı siyasəti formalaşdırmalıyıq".

R.Həsənovun fikrincə, qısamüddətli dövrdə hökumətin atacağı addım ehtiyatlar formalaşdırmaq ola bilər: "Məsələn, dabaq xəstəliyi kimi problemlər ortaya çıxdıqda bazara öz neqativ təsirini göstərməməsi üçün bu addım atılmalıdır. Problem baş verdikdə bu ehtiyatlardan istifadə edərək bazardakı vəziyyətin, dalğalanmaların qarşısını almaq, yaxud təklif qıtlığını aradan qaldırmaq məqsədilə istifadə edilməlidir. Bazarda bolluq yarandıqda yenidən ehtiyatlar bərpa olunmalıdır. Əgər yerli istehsal tələbatı ödəmirsə, xarici bazarlardan idxal etmək lazımdır. İdxalı da təşviq etmək üçün addımlar atılmalıdır. Subsidiya proqramlarının tətbiqi, logistika dəstəyinin verilməsi də mümkündür".



Rəşad Həsənov

# ƏN ZƏNGİN AYAQQABI MUZEYİNDƏN REPORTAJ

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bata Ayaqqabı Muzeyində dünyanın müxtəlif yerlərindən toplanan 14 min cütdən çox ayaqqabı saxlanılır. Kolleksiyalara yapon sandaletləri, 4500 il yaşı olan qədim ayaqqabılar da daxildir.

Bata Ayaqqabı Muzeyi Torontonun qərbindəki Bloor küçəsində yerləşir. Bu küçə bir neçə ayaqqabı kolleksiyasına ev sahibliyi etdiyi üçün "muzey küçəsi" kimi də tanınır. Yalnız Şimali Amerikada deyil, bütövlükdə dünyanın heç bir yerində bu qədər geniş ayaqqabı kolleksiyası yoxdur.

Muzeydə dünyanın müxtəlif yerlərindən toplanan 14 min cütdən çox ayaqqabı saxlanılır. Kolleksiyalar insan saçından hazırlanmış yapon sandaletlərindən tutmuş 4500 illik yaşı olan ayaqqabılara qədər dəyişir. Eksponatlar insan sivilizasiyalarını, həyatın bir çox sahələrini əhatə edir. "Buradakı ayaqqabılar mədəniyyəti anlamaq üçün unikal bir açardır. Buradakı hər ayaqqabının öz hekayəsi var", - deyə tanıyanlar muzeyi xarakterizə edirlər.

### AYAQQABI QUTUSUNA OXŞAYAN BİNA

Muzeyin dörd mərtəbəli binası simvolik olaraq ayaqqabı qutusuna bənzədilib. Bata Muzeyi 1979-cu ildə Bata ailəsi tərəfindən təsis edilib. Onun əsasını çex "ayaqqabı kral"ı Tomaş Batunanın oğlunun həyat yoldaşı Sonya Batunanın 1940-cı illərdən bəri topladığı ayaqqabı kolleksiyası təşkil edirdi. Sonya bu işə o qədər həvəsli idi ki, Tomaş Bata ilə evlənməzdən əvvəl artıq 1500 cüt müxtəlif ayaqqabı və çəkməyə sahib idi. Ərinin çoxsaylı işgüzar səfərlərində və digər səyahətlərində ona yoldaşlıq edir, geri qayıdanda özü ilə hər bir ölkəyə və ya mədəniyyətə xas olan ənənəvi ayaqqabı nümunələrini gətirirdi. Sonyanın kolleksiyasını italyan intibah ayaqqabılarından tutmuş Çindən gətirilən uşaq ayaqqabılarına qədər nümunələr bəzəyirdi.

1979-cu ildə ailəsi xanım Batanın şəxsi kolleksiyası əsasında Bata Ayaqqabı Muzeyi Fondunu yaradır. İllər ərzində Fond, xüsusən də Tısbağa Adası (Şimali Amerika) və Kanada, Sibir, Alyaska, Qrenlandiya, Finlandiya, İsveç və Norveçi əhatə edən qütb bölgələrinin yerli icmalarında ayaqqabı toplamaq və araşdırmaq üçün işləri maliyyələşdirir. Son nəticədə on dörd mindən çox ayaqqabı və əlaqəli əşyalardan ibarət misilsiz kolleksiyası olan Bata Ayaqqabı Muzeyi yaranır.



## Kraliça Viktoriyanın, Çörçilin, Diananın ayaqqabıları

1979-cu ildən 1984-cü ilə qədər əldə edilən kolleksiya Torontodakı "Bata Limited" ofislərində nümayiş etdirilir. Daha sonra təşkilatçılar tam hüquqlu bir muzey üçün bina tikməyi düşünməyə başlayırlar. Layihənin dizayneri memar Raymond Moriyama ideya irəli sürməzdən əvvəl kolleksiyaya şəxsən baxır. Nadir ayaqqabıların saxlanıldığı qutular onu heyrətləndirir və bina ideyasına ilham verir. Beləliklə, Toronto bir az açıq qapağı olan ayaqqabı qutusu formasında olan bu qeyri-adi binanı əldə edir. 1995-ci ildə muzey üçün tikilən bina qapılarını ziyarətçilərə açır.

Binanın hər guşəsi kolleksiyaçının fədakarlığını nümayiş etdirir. Burada müasir moda dizaynerlərinin idman ayaqqabılarını, çəkmələrini, eramızdan əvvəl Qədim Misirdə insanların geyindiyi ayaqqabıları, yerli amerikalıların çəkmələrini və sandaletlərini görə bilərsiniz. Kovboyların çəkmələrnə isə ayrıca ekspozisiyalar həsr olunub.

Bata Muzeyində dünya məşhurlarına həsr olunmuş ayrıca bir sərgi xüsusi maraq doğurur. İnsanlar ekspozisiyada nümayiş olunan Merilin Monro, Elvis Presli, Şahzadə Diana, Pablo Pikasso, Uinston Çörçil və digər məşhur şəxsiyyətlərə məxsus ayaqqabı kolleksiyalarına tamaşa etmək üçün gəlirlər. Kolleksiyada Kraliça Viktoriyanın bal tərlikləri, Con Lennonun çəkmələri və Elton Conun gümüş platforma çəkmələri nadir eksponatlar sayılır. Muzeydə moda səhnəsinin görkəmli siması Vivyen Vestvud, Manolo Blanik də daxil olmaqla 20-ci əsr dizaynerlərinin ayaqqabıları da nümayiş olunur.

## Bata Ayaqqabı Muzeyinin missiyası

Hər bir sərginin yanındakı ekranda ziyarətçilərə səbəbkar haqqında qısametrajlı film izləmək imkanı yaradılır. Daimi kolleksiyada dünyanın demək olar ki, hər mədəniyyətindən artefaktlar yer alıb. Muzey ayaqqabıların insan həyatında əhəmiyyəti barədə məlumat verən maarifləndirici mühazirələrə və xüsusi tədbirlərə və ailə proqramlarına ev sahibliyi edir. "Bata Ayaqqabı Muzeyinin missiyası ayaqqabıların bəşəriyyətin sosial və mədəni həyatının formalaşmasında əsas rolunu çatdırmaqdır. Ayaqqabı istehsalı tarixinin maddi sübutlarını əldə etmək, qorumaq, araşdırmaq, şərh etmək və sərgiləməklə muzey dünya sakinlərinin dəyişən vərdişlərini, həyat tərzini, mədəniyyətini və adətlərini nümayiş etdirir",- deyə muzeyin əməkdaşı ziyarətçilərə məlumat verir:

"Ayaqqabılar şəxsi zövq və üslubun göstəricisidir. Bu eksponatlar bizə dünyanın texnoloji inkişafı haqqında da çox şey deyə və cəmiyyətin dəyərlərindəki dəyişiklikləri qeyd edə bilər. Ayaqqabılar iqlimi, dini inancları və sənətkarlığın inkişafını, eləcə də cinsə və sosial statusa münasibətlərin əsrlər boyu necə dəyişdiyini əks etdirən bütün həyat tərzlərini əks etdirir".

### TANINMIŞ AYAQQABI TƏDQİQATLARI MƏRKƏZİ

Hazırda Bata Ayaqqabı Muzeyi dünyanın ən böyük və ən əhatəli ayaqqabı və ayaqqabı ilə əlaqəli əşyaların kolleksiyasına ev sahibliyi edir. Eksponatlar sırasına Misir sarkofaqı, çəkmə formasında ətir şüşələri, sandalet ayaqları formasında qədim Roma lampaları və 14-19-cu əsrlərə aid çox sayda rəsm, litoqrafiya və heykəl də daxildir. Bundan əlavə, muzey sahə tədqiqatlarına sponsorluq edən və təhsili təşviq edən beynəlxalq səviyyədə tanınmış ayaqqabı tədqiqatları mərkəzidir. Bu il muzey 30 illik yubileyini qeyd edir.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
30 DEKABR ÇƏRŞƏNBƏ AXŞAMI 2025

**2025-ci il Azərbaycan idmanı üçün tarixi oldu. MDB Oyunları, UFC turniri, minifutbol üzrə dünya çempionatının ən yüksək səviyyədə təşkili, azad edilmiş ərazilərdə idman infrastrukturunun bərpası ölkəmizin idman potensialını nümayiş etdirdi.**

# UĞURLARLA DOLU BİR İL



2025-ci il Azərbaycan idmanı üçün zəngin və uğurlarla dolu oldu. Təmsilçilərimiz beynəlxalq arenalarda fərdi və komanda səviyyəsində böyük nailiyyətlər əldə etdilər. Ölkəmizdə bir sıra mötəbər yarışlar uğurla təşkil olundu, eyni zamanda azad edilmiş torpaqlarımızda idman həyatının bərpası istiqamətində yeni addımlar atıldı. Dövlət səviyyəsində infrastrukturun inkişafına xüsusi diqqət yetirildi.

### MDB OYUNLARINDA YÜKSƏK TƏŞKİLATÇILIQ

Sentyabrın 28-dən oktyabrın 8-dək keçirilən III MDB Oyunları Azərbaycanın idman tarixində önəmli mərhələ oldu. 13 ölkədən 1 624 idmançı və 2 337 nümayəndə yarışlarda iştirak etdi. Azərbaycan 340 idmançı ilə ən böyük heyətlə təmsil olundu. Ümumi medal sayımız 184 oldu: 33 qızıl, 56 gümüş və 95 bürünc.

Güləş, boks və taekvondo ənənəvi güclü sahələr kimi çıxış etdi, lakin stolüstü tennis və üzgüçülük kimi yeni növlərdə də uğurlar əldə edildi. Stolüstü tennisçilərimiz fərdi və cütlük yarışlarında gümüş medallara sahib çıxdılar. Üzgüçülərimiz 13 medal qazandı, bu da su idman növlərində inkişafın göstəricisidir. U-16 futbol yığmamız finalda Rusiyaya məğlub olaraq gümüş medal qazandı, qadın basketbolçularımız (3x3) ikinci pillədə qərarlaşdı. Ənənəvi milli oyun olan çövkən komandamız isə qızıl medal əldə etdi.

Oyunlar regionlarda infrastrukturun inkişafına töhfə verdi. Yarışlar göstərdi ki, Azərbaycan yalnız uğurlu idmançılar yetişdirmir, həm də geniş infrastruktur və təşkilatçılıq bacarığını nümayiş etdirir. MDB Oyunlarının kamandan oxatma yarışlarının Xankəndidə yüksək səviyyədə təşkili xüsusilə simvolik idi.

İyunun 21-də Bakı Kristal Zalında Azərbaycanda ilk dəfə UFC turniri keçirildi. Turnirdə 24 idmançı qüvvəsini sınadı, ilkin və əsas kartlarda maraqlı döyüşlər gerçəkləşdi. Əsas kartda üç azərbaycanlı döyüşçü çıxış etdi. Tofiq Musayev debütünü reallaşdırdı, lakin ilk raundda uduzdu. Nazim Sadıxov isə Nikolas Mottanı ikinci raundda nokaut edərək gecənin ən yaxşı döyüşü və nokautu nominasiyasında qalib oldu. Rafael Fiziyev çilili İqnasio Bahamondes üzərində hakimlərin qərarı ilə qələbə əldə edərək, uğurlu geridönüşünü rəsmiləşdirdi. Turnirin təşkili yüksək səviyyədə idi.

### MİNİFUTBOL MİLLİMİZDƏN DÜNYA ÇEMPİONLUĞU

Bu il ölkəmizdə təşkil olunan ən böyük turnirlərdən biri minifutbol üzrə dünya çempionatı oldu. Mundial həm möhtəşəm açılış mərasimi, həm ümumi təşkilatçılıqla rəğbət doğurdu.

Milli komandamız isə azarkeşləri çempionluqla sevindirməyi bacardı. A qrupunda Sloveniya, Mavritaniya və Bəhreynlə mübarizədə lider olan yığma 1/8 finalda Rumıniyaya, 1/4 finalda İngiltərəyə, yarımfinalda Monteneqroya qalib gəldi. Finalda Macarıstanla üz-üzə gələn Azərbaycan millisi 4:2 hesablı qələbə ilə ilk dəfə dünya çempionu adını qazandı.

### "QARABAĞ"DAN TARİXİ NAİLİYYƏT

Azərbaycan futbolunu beynəlxalq müstəvidə uğurla təmsil edən "Qarabağ" bu il nailiyyətlərinə daha birini əlavə etdi. "Atlılar" təsnifat raundlarını keçərək, tarixində ikinci dəfə Çempionlar Liqasının əsas mərhələsində iştirak etmək hüququ qazandılar. Burada da Qurban Qurbanovun yetirmələrinin işləri qaydasında gedir. 6 turdan sonra təmsilçimiz 7 xalla 22-ci pillədədir. "24-lük"də yer alan "Qarabağ" pley-offa yüksəlmək üçün yaxşı şansa malikdir. Komandamız "Benfika" və "Kopenhagen"lə qarşılaşmalarda əldə etdiyi parlaq qələbələrlə turnirdə adından söz etdirməyi bacarıb. Eyni zamanda, Bakıda İngiltərənin "Çelsi" klubu ilə qarşılaşmada əldə olunan heç-heçə "Qarabağ"ın top səviyyə rəqiblərlə layiqli mübarizə apara bildiyini növbəti dəfə sübuta yetirdi. Qarşıda "Ayntraxt" və "Liverpul"la oyunlarda qazanılacaq bir qələbə komandamızın növbəti tarixi nailiyyəti əldə edib mərhələ adlamasına səbəb ola bilər.




## BAKI KÜÇƏLƏRİNDƏ YÜKSƏK SÜRƏT

Doqquzuncu dəfə Bakıda keçirilən "Formula 1" Azərbaycan Qran-prisi yenə də mövsümün ən maraqlı mərhələlərindən biri oldu. Dar döngələr, uzun düz yollar və Xəzər sahilindən qalxan küləklər hər zamankı kimi pilotlardan maksimum texniki ustalıq və dəmir iradə tələb etdi. Bu yarış hər zamankı kimi ölkə iqtisadiy-yatının inkişafına böyük töhfəsi ilə diqqət çəkdi. Ümumilikdə, 2025-ci il Azərbaycan idmanı üçün tarixi oldu. MDB Oyunları, UFC turniri, minifutbol üzrə dünya çempionatının ən yüksək səviyyədə təşkili, azad edilmiş ərazilərdə idman infrastrukturunun bərpası, beynəlxalq yarışlarda əldə olunan saysız medallar ölkəmizin idman potensialını, beynəlxalq nüfuzunu və gənc nəsil üçün perspektivləri nümayiş etdirdi.